ÜÇ ƏSRİN QƏZETİ

Kaspi

22 İYUL ŞƏNBƏ 2023 | 26 (4128)

Qiyməti - 40 qəpik

www.kaspi.az

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

BUĞDANIN UCUZLAŞMASI DAYANACAQ

Rusiyanın birtərəfli qaydada "Taxıl sazişi"ndən çıxması dünya taxıl bazarında dalğalanmalara səbəb olub. Ekspertlər taxılın ucuzlaşmasının dayanacığını, bu prosesin Azərbaycana da təsir göstərəcəyini bildirirlər.

SƏHİFƏ 4-də

QANUNSUZ OBYEKTLƏRİN

QEYDİYYATINA YAŞIL İŞIQ

Qanunsuz qeyri-yaşayış təyinatlı tikililərin qeydiyyatı, sənədləşdirilməsi ilə bağlı yeni prosesə start verilir. Artıq minlərlə sahibkar öz əmlakları üzərində mülkiyyət hüququ qazanmaq imkanı əldə edəcəklər.

SƏHİFƏ 7-də

"İTALİYA ÇƏKMƏSİNİN

DABANI"NDAN REPORTAJ

Adriatik dənizinin sahilində yerləşən füsunkar Alberobello kəndi YUNESKO-nun mədəni irs siyahısına daxil edilib. Bu kəndin konusvari damı olan kiçik evlərinə dünyanın heç bir yerində rast gəlinmir.

SƏHİFƏ 12-də

DÜNYA FUTBOLUNDA "QUM FIRTINASI"

Son illərdə öncə ərəb milyarderlər Avropa klublarına sərmayə yatırmağa başladılar. Bu zaman ölkə çempionatına yüksəködənişli oyunçular cəlb olunurdu, ancaq rəqəmlər indiki qədər fantastik deyildi.

SƏHİFƏ 16-da

PREZİDENT EKSPERTLƏRİN VƏ JURNALİSTLƏRİN SUALLARINI CAVABLANDIRIB

DÜNYAYA ŞUŞADAN SƏSLƏNİŞ

Şuşa daha bir möhtəşəm tədbirə ev sahibliyi edir. Qlobal Media Forumuna 49 ölkədən 150 xarici qonaq, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyi, 12 beynəlxalq təşkilat və media qurumu qatılıb.

"Mediamızda sağlamlaşma prosesi uğurla gedir"

Dövlət başçısı milli mediamızın fəaliyyətindən də danışıb: "Azərbaycan mediasının müstəqilliyi bizim cəmiyyətimizin inkişafı üçün başlıca şərtlərdən biridir. Mən çox şadam ki, bizim mediamızda sağlamlaşma prosesi uğurla gedir. Xalqın maraqlarına zidd, dövlət maraqlarına zərbə vura biləcək yazılar artıq çox nadir hallarda üzə çıxır. Yəni, bu, media nümayəndələrinin məsuliyyətindən xəbər verən amildir".

"XALQIMLA FƏXR ETMƏMƏK MÜMKÜN DEYİL"

"Hər dəfə Qarabağa və Şərqi Zəngəzura gələndə ilk növbədə hiss etdiyim qürur hissidir. Çünki xalqımla, ordumuzla, qəhrəmanlarımızla fəxr etməmək mümkün deyil", - İlham Əliyev deyib. O əlavə edib ki, Vətən müharibəsi qəhrəman əsgər və zabitlərimizin, xalqımızın vətənpərvərliyini bir daha nümayiş etdirib.

150 MİNDƏN ÇOX İNSAN QAYIDACAQ

Prezident bildirib ki, növbəti üç il ərzində Qarabağ və Şərqi Zəngəzur rayonlarına 150 mindən çox insan qaytarılacaq. "Təkcə Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur. Şuşa şəhərində, ümid edirəm ki, gələn il birinci sakinlər gələcək, yerləşəcəklər", - deyə Prezident qeyd edib.

SƏHİFƏ 2-DƏ

İRAN RUSİYANI ŞANTAJ EDİR

Tehran rejimi ilə Moskva arasında soyuq küləklər əsir. Körfəz Əməkdaşlıq Şurasının Rusiya paytaxtında qəbul olunan son bəyanatına cavab olaraq İran Ukraynanın ərazi bütövlüyünü tanıdığını bəyan edib.

SƏHİFƏ 6-da

ONSUZ DA BAHA İDİ, BİR AZ DA BAHALAŞACAQ

Hindistan daxildəki inflyasiya risklərini azaltmaq üçün düyü ixracına qadağa qoymağı düşünür. Ekspertlər isə bu qənaətdədir ki, əgər bu addım reallaşarsa, Azərbaycanda da düyünün qiyməti bahalaşacaq.

SƏHİFƏ 10-da

YENİ SİSTEMƏ KEÇİLİR, AMMA HƏLƏ DƏ SUALLAR QALIR

3 gün sonra parklanma ilə bağlı yeni qaydaların tətbiqinə başlanılmalıdır. Lakin cavabsız qalan suallar çoxdur. Görünən odur ki, yeni sistemə tam keçid yaxın vaxtlarda mümkün olmayacaq.

SƏHİFƏ 11-də

BAŞ REDAKTORDAN

Bayram düşüncələri

Bilirik ki, güclü media dövlətimizin gücünə güc qatar. Ordumuz 44 günlük Vətən müharibəsində öz gücünü əyani olaraq nümayiş etdirdi. İnşallah, mediamız da informasiya savaşında parlaq qələbələr qazanmaqla Azərbaycanın daha güclü dövlət olmasına töhfəsini verəcəkdir.

Səhifə 3-də

İlham Quliyev

Kambocada müəllim işləyən azərbaycanlı

Müsahibimiz Kambocada müəllim işləyən azərbaycanlı Elnur Kərimovdur. Həmsöhbətimiz Sumqayıtda anadan olub.

- Nəqliyyat vasitələrini istədikləri kimi idarə edirlər. Təsəvvür edin, işıqforlar qurşadırılıb, amma qırmızı işıqda çox rahatlıqla hərəkət edə bilərsiniz. Heç kim sizə cərimə tətbiq etmir.

- Onlar salam verəndə, əllərini qovuşdurub, baş əyirlər. Biz isə əl ilə görüşürük. Salam vermək üçün əl uzadanda qəribə reaksiya verirlər. Onlara müraciət formasında diqqətli olmaq lazımdır.

SƏHİFƏ 8-9-da

"Abşeron"da görüləcək işlər müzakirə edilib

Səhifə 3-də

Paşinyan Köçəryanı necə zərərsizləşdirir?

Səhifə 5-də

Tək dərmanı zərdab vurulmasıdır

Səhifə 13-də

Ölmək üçün nəzarətdən qaçanlar

Səhifə 14-də



Pul tələsi, yoxsa qoruyucu vasitə?

Səhifə 15-də

DÜNYAYA ŞUŞADAN SƏSLƏNİŞ

Mədəniyyət paytaxtımız Şuşa daha bir möhtəşəm tədbirə ev sahibliyi edir. "Heydər Əliyev İli" çərçivəsində və Azərbaycan Milli Mətbuatının 148-ci ildönümü ilə bağlı keçirilən Qlobal Media Forumuna 49 ölkədən 150 xarici qonaq, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyi, 12 beynəlxalq təşkilat və media qurumu qatılıb.

Şuşada "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumu keçirilir. Prezident İlham Əliyevin tapşırığına əsasən, "Heydər Əliyev İli" çərçivəsində və Azərbaycan Milli Mətbuatının 148-ci ildönümü ilə bağlı keçirilən Forumda 49 ölkədən 150 xarici qonaq, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyi, 12 beynəlxalq təşkilat və media qurumu qatılıb. Həmçinin Forumda 60 yerli media rəhbəri və nümayəndəsi iştirak edir. Forum çərçivəsində Qoşulmama Hərəkatı Media platforması təşəbbüsü də irəli sürüləcək.

ŞUŞA SÜLHÜN RƏMZİDİR

Prezident İlham Əliyev Forumda çıxış edib. Dövlət başçısı müxtəlif mövzulara dair çoxsaylı sualları cavablandırıb.

"Şuşa Qlobal Media Forumu bizim ölkəmiz və Qarabağ bölgəsi üçün çox möhtəşəm bir tədbirdir", - deyə Prezident bildirib. O qeyd edib ki, Şuşa rəsmi olaraq Azərbaycanın Mədəniyyət Paytaxtıdır və bizim qələbəmizin rəmzidir: "Şuşa, eyni zamanda, sülhün rəmzidir. Şuşa azad olunduqdan sonra İkinci Qarabağ müharibəsi başa çatdı".

"MEDİAMIZDA SAĞLAMLAŞMA PROSESİ UĞURLA GEDİR"

Dövlət başçısı milli mediamızın fəaliyyətindən də danışıb: "Azərbaycan mediasının müstəqilliyi bizim cəmiyyətimizin inkişafı üçün başlıca şərtlərdən biridir. Mən çox şadam ki, bizim mediamızda sağlamlaşma prosesi uğurla gedir. Xalqın maraqlarına zidd, dövlət maraqlarına zərbə vura biləcək yazılar artıq çox nadir hallarda üzə çıxır. Yəni, bu, media nümayəndələrinin məsuliyyətindən xəbər verən amildir".

ERMƏNİSTAN SON BİR ADDIM ATMALIDIR

Prezident Azərbaycan və Ermənistan arasında sülh prosesinə dair sualı da cavablandırıb. "Hazırda üç beynəlxalq tərəf var ki, bu prosesə (Ermənistanla Azərbaycan arasında normallaşma prosesinə - red.) dəstək olurlar - ABŞ, Rusiya və Avropa İttifaqı. Azərbaycan üç istiqamət üzrə tam səmimiyyətlə bu prosesə qatılıb və nəticəyönümlü yanaşma ortaya qoyur. Lakin indiyədək bir nəticə yoxdur", - deyə dövlət başçısı bildirib. O əlavə edib ki, indi Ermənistan son bir addım atmalıdır: "Onlar artıq müharibədən sonra bir sıra addımlar atıblar və mən deməzim ki, bu addımlar könüllü olaraq atılıb. Son iki il yarım ərzində bir neçə məqam olub. Onlar Ermənistana birbaşa nümayiş etdirdi ki, onlar bizim ərazi bütövlüyümüzü tanımasalar, biz onların ərazi bütövlüyünü tanımayacağıq. Bunun onlar üçün nə məna daşıdığı kifayət qədər aydındır. Onlar artıq qəbul ediblər ki, Qarabağ Azərbaycandır, bunu açıq şəkildə bəyan ediblər və artıq sənədə imza atmaq mərhələsidir. Bu, sırf mühüm sonuncu məqamdır".

Dövlət başçısı deyib ki, sülh perspektivinə inanır: "Əgər Azərbaycana qarşı hər hansı ərazi iddialarından imtina etsə, bu sazişin (sülh müqaviləsinin – red.) ilin sonuna qədər imzalanması kifayət qədər mümkündür".

İlham Əliyev qeyd edib ki, lakin bu olmasa, sülh də olmayacaq. Bu isə bölgə üçün yaxşı ssenari deyil, sabitlik, təhlükəsizlik bəxş etməyəcək. Eyni zamanda, çox həssas geosiyasi vəziyyəti nəzərə alaraq, gələcəkdə də çətinliklər yaradacaq.

"XALQIMLA FƏXR ETMƏMƏK MÜMKÜN DEYİL"

Prezident işğaldan azad edilən ərazilərdə aparılan bərpa və quruculuq işlərindən, həmçinin keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı prosesindən də danışıb. "Hər dəfə Qarabağa və Şərqi Zəngəzura gələndə ilk növbədə hiss etdiyim qürur hissidir. Çünki xalqımla, ordumuzla, qəhrəmanlarımızla fəxr etməmək mümkün deyil", - İlham Əliyev deyib.

Vətən müharibəsinin qəhrəman əsgər və zabitlərimizin, xalqımızın vətənpərvərliyini bir daha nümayiş etdirdiyini vurğulayan Prezident deyib: "Bütün bunlar xalqımızı bir daha hər birimizə tanıtdı, Azərbaycan insanının necə yüksək mənəvi keyfiyyətlərə malik olmasını bir daha göstərdi".

ÜÇ İLDƏ QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURA 150 MİN İNSAN QAYIDACAQ

Prezidentin sözlərinə görə, şəhərlərin Baş planları təsdiq olunanda əvvəllər orada yaşamış insanların da rəyi nəzərə alınıb: "Şəhərlərin bərpasının təməlqoyma mərasimini də mən keçmiş köçkünlərlə birlikdə həyata keçirmişəm. Biz çox istəyirik ki, otuz il ərzində mənəvi və fiziki əzablar çəkmiş insanlar ən yaxşı şəraitlə təmin olunsun və buna doğru da gedirik və gedəcəyik".

Dövlət başçısı bildirib ki, işğaldan azad olunan ərazilərdə böyük miqyaslı işlər görülür: "Bu miqyasda layihələri iki il yarım ərzində həyata keçirmək, məncə, heç kimin ağlına gəlməzdi. Heç kim təsəvvür edə bilməzdi ki, cəmi iki il yarım ərzində bu qədər genişmiqyaslı işlər görüləcək, özü də böyük ərazidə. On min kvadratkilometri əhatə edən ərazidə durmadan, gecə-gündüz işlər gedir".

Prezident bildirib ki, növbəti üç il ərzində Qarabağ və Şərqi Zəngəzur rayonlarına 150 mindən çox insan qaytarılacaq. "Təkcə Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur. Şuşa şəhərində, ümid edirəm ki, gələn il birinci sakinlər gələcək, yerləşəcəklər", - deyə Prezident qeyd edib.

148 YAŞLI mətbuatımız



Bilirik ki, gördüyümüz iş dövlətimizin və cəmiyyətimizin gələcəyi üçün çox vacibdir. Bilirik ki, güclü media dövlətimizin gücünə güc qatar.

İLHAM QULİYEV

İllər çox sürətlə keçir. Sürətlə keçən bu illərdə dünya da çox sürətlə dəyişir. Bu gün artıq real dünyamızla yanaşı, virtual dünya da həyatımızda xüsusi rol oynayır. Bu dəyişikliklər mediadan da yan keçmir. Son illər internet mediası, sosial media kimi terminlər leksikonumuza çox sürətlə daxil olmaqdadır. İşimizə birbaşa təsir edən, onun mahiyyətini dəyişən nəsnələrdir. Bəli, bu gün media tamamilə yeni bir yola qədəm qoyub. Artıq, ənənəvi media da yeni media alətlərinə inteqrasiya etmək yolunu tutub. Hazırda nəinki qəzetlər və saytlar, hətta televiziyalar da sosial medianın yaratdığı yeni reallıqlardan istifadə etmək yolu ilə özünü təqdim edə bilirlər. Bu gün 148 yaşını qeyd edən Azərbaycan mediası bu dəyişim prosesini real olaraq yaşamaqdadır. Sirr deyil ki, dəyişim, yeniləşmə prosesi həmişə ağrılı keçir. Bizdə də bu proseslər kataklizmlərsiz ötüşmür.

ƏNƏNƏVİ MEDİA ÖZ VARLIĞINI QORUYUB SAXLAYIB

Bayram günündə təbii ki, mediamızın əldə etdiklərindən, uğurlarından bəhs etməliyik. Əlbəttə, bütün çətinliklərə baxmayaraq, bu gün Azərbaycanın ənənəvi mediası öz varlığını qoruyub saxlayıb. Köhnə dəyərlərin sürətlə sıradan çıxmaqda olduğu bu dövrdə varlığın qorunub saxlanılması da böyük uğur kimi qiymətləndirilə bilər. Media bu gün yenə də ictimai rəyin formalaşdırılmasında öz rolunu oynayır. Kimsə deyə bilər ki, bu gün ictimai rəyin istiqamətverici qüvvəsi sosial mediadır. Ola bilsin ki, belədir. Amma nəzərə almaq lazımdır ki, bu gün sosial mediadakı ictimai rəyi istiqamətləndirənlərin də çoxu ənənəvi media orqanlarında çalışan qələm adamlarıdır.

MEDİA SİPƏR ROLUNDA

148 yaşlı milli mətbuatımız öz üzərinə düşən missiyanı çox yaxşı anlayır. Biz bilirik ki, medianın əsas vəzifəsi məlumatların çatdırılması, problemlərin tapılaraq üzə çıxarılması, təqdim edilməsi, həll yollarının göstərilməsidir. Mediamız bütün çətinliklərə baxmayaraq, bu istiqamətdə çalışır. Neçə-neçə problemlər məhz medianın ictimailəşdirməsindən sonra həllini tapır.

Bu gün hər birimiz dünyanın "feyk-nyus"larla necə idarə olunduğunu əyani şəkildə görürük. Neçə-neçə dövlətlərin bu yolla hansı talelər yaşadığı çoxumuz üçün sirr deyil. Bu baxımdan, mediamız həm də bu tipli yalan xəbər maşınlarına qarşı mübarizə aparır, mən deyərdim ki, hətta sipər rolunu oynayır.

BU İŞLƏ PEŞƏKARCASINA MƏŞĞUL OLMAQ DAHA DA ÇƏTİNLƏŞİB

Ümumi götürəndə jurnalistika həmişə çətin peşə olub. Son illərdə isə bu işlə peşəkarcasına məşğul olmaq daha da çətinləşib. Kənardan çox parıltılı görünən bu peşə, daxilinə varanda çox əziyyətlidir. İndi yazmağı bacaranların böyük əksəriyyəti özünü jurnalist hesab edir. Hətta normal yazmağı bacarmayanlar belə, sosial şəbəkə hesablarında peşəkar jurnalistlərə "dərs keçir", "necə yazmaq lazım olduğunu öyrədirlər". Belə şəraitdə işləmək həqiqətən də asan deyil. Amma biz işləyirik. Bilirik ki, gördüyümüz iş dövlətimizin və cəmiyyətimizin gələcəyi üçün çox vacibdir. Bilirik ki, güclü media dövlətimizin gücünə güc qatar. Ordumuz 44 günlük Vətən müharibəsində öz gücünü əyani olaraq nümayiş etdirdi. İnşallah, mediamız da informasiya savaşında parlaq qələbələr qazanmaqla Azərbaycanın daha güclü dövlət olmasına töhfəsini verəcəkdir.

Bayramımız mübarək, əziz həmkarlar!

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03
Tel: (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

"Abşeron"da görüləcək işlər müzakirə edilib

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf "TotalEnergies" şirkətinin baş vitse-prezidenti Jean-Luc Guiziou ilə görüşüb. Bu barədə "Report"a SOCAR-dan bildirilib.

Görüşdə cari ilin ilk altı ayının sosial-iqtisadi yekunlarına həsr olunan müşavirədə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən "Abşeron" qaz-kondensat yatağının işlənməsinin ikinci mərhələsi üzrə verilən tapşırıqları rəhbər tutaraq, layihənin icrası ilə bağlı görüləcək işlər müzakirə edilib.

Görüş çərçivəsində "Abşeron" yatağının işlənməsinin İlkin Hasilat Sxemi (İHS) mərhələsi üzrə cari ilin iyul ayının əvvəlində hasilata başlanılmasından məmnunluq ifadə olunub, layihənin cari vəziyyəti və ölkəmizin hasilat potensialının artırılması baxımından əhəmiyyəti vurğulanıb.

Qeyd edək ki, Xəzər dənizinin Azərbaycan sektorunda, Bakıdan təxminən 100 kilometr cənub-şərqdə yerləşən "Abşeron" qaz-kondensat yatağının işlənməsi iki mərhələdə həyata keçirilir. İHS layihəsi çərçivəsində hazırda gündəlik 4,3 milyon kubmetr qaz və 1400 ton kondensat hasil olunur.

Azerconnect jurnalistləri bir araya topladı

Azerconnect şirkəti 22 iyul Milli Mətbuat Günü münasibətilə Şamaxıda jurnalistlər üçün "Telekommunikasiyada müasir çağırışlar" mövzusunda iki günlük seminar təşkil edib.

Seminarın keçirilməsində əsas məqsəd telekommunikasiya sahəsində ölkəmizdə və dünyada baş verən yeniliklər və mövcud çağırışlar, Azərbaycanda telekommunikasiya operatorlarının fəaliyyətində tətbiq olunan innovasiyalar və inkişaf perspektivləri barədə media işçilərinin məlumatlılığını artırmaq olub.

Azerconnect şirkətinin marketinq üzrə Baş müdiri Müşfiq Əliyev, Korporativ kommunikasiya departamentinin rəhbəri Əlimərdan Sultanov, İnformasiya texnologiyaları və əsas şəbəkə üzrə aparıcı direktoru Pərviz İsmayılov mətbuat nümayəndələrini 22 iyul Milli Mətbuat Günü münasibətilə təbrik edərək təqdimatlar ilə çıxış ediblər.

Spikerlər Azerconnect şirkəti və onun telekommunikasiya sektorunda göstərdiyi xidmətlər, icra olunan layihələr, sözügedən sahədə dinamik dəyişikliklər, müasir çağırışlar, şirkətlərin və müştərilərin gözləntiləri, gələcək inkişaf istiqamətləri barədə ətraflı məlumat veriblər. Daha sonra media nümayəndələrinin çoxsaylı sualları ətrafında fikir mübadiləsi aparılıb.

Seminarda ümumilikdə ölkənin 30-a qədər aparıcı media qurumunu təmsil edən jurnalistlər iştirak edib.

BUĞDANIN UCUZLAŞMASI DAYANACAQ

Rusiyanın birtərəfli qaydada "Taxıl sazişi"ndən çıxması dünya taxıl bazarında dalğalanmalara səbəb olub. Ekspertlər taxılın ucuzlaşmasının dayanacağını, bu prosesin Azərbaycana da təsir göstərəcəyini bildirirlər.

BƏXTİYAR MƏMMƏDLİ
bextiyarmemmedli@kaspi.az

Rusiya, Türkiyə, Ukrayna və BMT nümayəndələri tərəfindən 2022-ci il iyulun 22-də imzalanan "Taxıl sazişi" yenidən qüvvədən düşüb. İyulun 17-də Rusiya sazişdən çıxdığını bəyan edib. Bu qərar yenidən dünya taxıl bazarında dalğalanmalara səbəb olub.

"TAXIL SAZİŞİ" UZADILACAQ?

Mövzu ilə bağlı "Kaspi" qəzetinə açıqlamasında iqtisadçı Eldəniz Əmirov bildirdi ki, Rusiya tərəfi, həmişə olduğu kimi, yenə də istənilən kiçik bir elementdən öz xeyrinə istifadə etməyə çalışır: "Sanksiyaların mümkün qədər yumşaldılmasına nail olmaq yolunda "Taxıl sazişi" Rusiya üçün bir fürsətdir. Hələlik indiki şərtləri bəlli deyil. Amma əvvəlki şərtləri ondan ibarət idi ki, Rusiyanın Kənd Təsərrüfatı Bankı SWİFT sisteminə qaytarılmalıdır. Eyni zamanda, kənd təsərrüfatı texnikasının logistik fəaliyyətinə tətbiq edilən qadağalar ləğv edilməlidir. Həm də Rusiya gəmilərinin limanlara daxil olmasına qoyulmuş qadağanın aradan qaldırılmasını istəyirlər. Rusiya tərəfi qeyd etdiyim hər üç qadağanın aradan qaldırılmasını tələb edirdi. Düşünmürəm ki, ABŞ bu güzəştlərə razı olsun. Mənim fikrimcə, hazırkı vəziyyətdə Rusiya tərəfinə güzəşt olmayacağı təqdirdə belə, yenə də "Taxıl sazişi" uzadılacaq".

Eldəniz Əmirov

BEYNƏLXALQ TƏSİSATLARIN QORXULU PROQNOZLARI

E.Əmirov vurğuladı ki, sazişin uzadılmaması ehtimalı azdır: "Rusiya tərəfi bilir ki, hazırkı vəziyyətdə təklənir və "Taxıl sazişi"ni uzatmaması daha çox təklənməsinə səbəb olacaq. Ehtimal ki, saziş uzadılmayacağı təqdirdə yenidən buğdanın qiymətlərində artımlar olacaq və bu, dünyada xoşagəlməz hallara gətirib çıxaracaq. Lakin bu vəziyyət qısamüddətli olacaq. 2020-ci ildən bəri həmişə beynəlxalq təsisatlar həddindən artıq qorxulu proqnozlar verirlər. İndiki halda narahatlığa heç bir əsas yoxdur. Əgər "Taxıl sazişi" uzadılmasa, o zaman BMT-nin FAO təşkilatı sərt reaksiya verəcək".

ÖLKƏYƏ İDXAL EDİLƏN BUĞDANIN HƏCMİ ARTIB

Bu ilin yanvar-iyun ayları ərzində Azərbaycana 145 milyon 565 min ABŞ dolları dəyərində 493 min 210,21 ton buğda idxal edilib. Dövlət Gömrük Komitəsinin aylıq hesabatına görə, ötən ilin müvafiq dövrü ilə müqayisədə ölkəyə idxal edilən buğdanın dəyəri 1,8 faiz, həcmi isə 23,1 faiz artıb. Ötən ilin ilk 6 ayında Azərbaycana 142 milyon 965 min dollar dəyərində 400 min 748 ton buğda idxal edilib.

TAXILIN UCUZLAŞMASI DAYANACAQ

İqtisadçı Xalid Kərimli isə bildirdi ki, Ukrayna bu dəhliz vasitəsilə tək taxıl ixrac etmirdi: "Adı "Taxıl dəhliz"i olsa da, bu xətlə qarğıdalı, günəbaxan yağları da ixrac edilirdi. Taxıl istehsalında Hindistan və Çin öndədir. Amma bu ölkələr ixracda o qədər öndə deyillər və istehsal daxili tələbata yönəlib. Müharibəyə qədər isə, Ukrayna dünya taxıl ixracında 7-8 faiz paya malik idi. Müharibədən sonra yəqin ki, bu pay azalıb. Dünya ixracındakı 7-8 faizlik rəqəmi saxlasaq və "Taxıl dəhlizi" tam olaraq işləməsə belə, taxıl və duru yağların qiymətində artım olacaq. Lakin burada digər məqam da var, "Taxıl dəhlizi" olmasa da, Ukrayna Polşa və Rumıniya üzərindən Avropa bazarına taxıl ixrac edir. "Taxıl dəhlizi"nin bağlanması Ukrayna taxılının dünya bazarına çıxmaması demək deyil. İkincisi, 2022-ci illə müqayisədə digər müsbət məsələlər də var. Bu da ondan ibarətdir ki, Braziliya, Amerika və Rusiya bu dövrdə taxılın istehsal həcmini və ixracını artırıblar. Yəni, indiki vəziyyət 2022-ci ildəki vəziyyət deyil. Son 12 ayda dünya bazarında taxılın, xüsusən də buğdanın qiymətlərində 25 -30 faiz ucuzlaşma var. Ucuzlaşma hər ay davam edirdi. Elə iyun ayında da 2 faizlik ucuzlaşma var idi. "Taxıl dəhlizi"nin fəaliyyətinin dondurulması bu ucuzlaşmanın dayanması deməkdir. Amma bu, ötənilki kimi faciəvi olmayacaq. Ötən il gözləntilər daha pis idi, dünya taxıl bazarında məhsuldarlıq səviyyəsi o qədər yaxşı deyildi. İndi vəziyyət o yerə çatıb ki, ötən il taxıl ixracına rüsum tətbiq edən Rusiya bu il bu addımı atmayıb. "Taxıl dəhlizi" ilə bağlı vəziyyəti ümumiləşdirsək, deyə bilərik ki, dünyada taxılın qiymətinin ucuzlaşması dayanacaq, amma bu, ötənilki kimi problemli olmayacaq".

AZƏRBAYCANA DA TƏSİR GÖSTƏRİR

X.Kərimli vurğuladı ki, dünya bazarında taxılın qiymətinin ucuzlaşmasının dayanması Azərbaycana da təsir göstərir: "Misal üçün, taxılın qiyməti baha olanda unun bir kisəsi 40 manat idi, amma indi 25-26 manata düşüb. Çörəyin qiymətini endiriblər və 70 qəpikdən 60 qəpiyə düşüb. Yəni, ucuzlaşma bizdə də müşahidə olunurdu. İndi "Taxıl sazişi"nin dayandırılması bu ucuzlaşmanın dayanması demək olacaq. Düzdür, bizim taxıl təchizatımızın Ukrayna ilə əlaqəsi yoxdur. Biz əsasən Rusiyadan alırıq və buna görə də məhsul qıtlığı problemi olmayacaq".

Xalid Kərimli

PAŞİNYAN KÖÇƏRYANI NECƏ ZƏRƏRSİZLƏŞDİRİR?

Ermənistanın baş naziri Nikol Paşinyanla eks-prezident Robert Köçəryan arasında ziddiyyət yeni mərhələyə qədəm qoyub. Brüssel danışıqları ərəfəsində Ermənistanın ikinci prezidenti və onun ailə üzvlərinin əmlaklarının müsadirəsilə bağlı məhkəmə qərarı verilib.

Fuad ABASOĞLU

Ermənistanın hazırkı baş naziri Nikol Paşinyanla keçmiş prezident Robert Köçəryan arasında ziddiyyətin kökü uzun müddətə dayanır. Bu ziddiyyət Ermənistan erməniləri ilə Qarabağ klanı arasında uzun illər davam edən qarşıdurmanın təzahürüdür. 2018-ci ildə Paşinyan Qarabağ klanının sonuncu üzvü Serj Sarqsyanı hakimiyyətdən uzaqlaşdıra bildi. Bununla da, Qarabağ klanının quldurlarına qarşı "səlib yürüşü"nə start verildi. Baş nazir ilk olaraq 2008-ci il hadisələrinə görə Robert Köçəryana qarşı cinayət işinin açılmasına müvəffəq oldu. Bundan sonra da, onu danışıqları dalana salmaqda ittiham etməyə başladı. Eyni zamanda, konstitusiyanın tələblərindən yan keçərək prezident seçkilərinə getdiyi üçün Köçəryanın ölkə prezidenti kimi legitimliyini şübhə altına aldı. Çünki de-fakto və de-yure Köçəryan Qarabağ ermənisidir və pasportunda Azərbaycan SSR vətəndaşlığı var.

Paşinyanın Köçəryana qarşı başlatdığı "səlib yürüşü"ndə ikinciyə yaxın olan 200-dən çox insan zərər çəkib. Bəziləri işdən atılıb, bəziləri həbs edilib, bəziləri isə ölkədən qaçıb. Bu iki tərəf arasındakı ziddiyyət həm də məhkəmə və idarəetmə orqanları arasında mübarizəyə çevrilib.

KONSTİTUSİYA QURULUŞUNU DEVİRMƏ VƏ RÜŞVƏT İTTİHAMI

2018-ci ilin iyul ayında Robert Köçəryan ölkədə konstitusiya quruluşunu devirmək və 3 milyon dollar dəyərində rüşvət almaqda ittiham edilərək həbs edilib. 13 avqustda apellyasiya məhkəməsi Köçəryanı azadlığa buraxsa da, dekabr ayında o, yenidən saxlanılıb. Nəhayət, 2019-cu ildə Köçəryan azadlığa buraxılıb və bu səbəbdən Nikol Paşinyan ölkənin ədliyyə sistemini və Dağlıq Qarabağın tanınmamış rəhbərliyini özünə və hökumətinə qarşı sui-qəsddə ittiham edib.

Azadlığa çıxan Köçəryan aktiv siyasətə qayıtmaq qərarına gəlib. Bu məsələdə Rusiya prezidenti Vladimir Putinlə şəxsi dostluq münasibətlərinə güvənən Robert yenidən hakimiyyətə gəlməyi hədəfləsə də, arzusuna nail ola bilmir. Hətta, 2019-cu ildə Ermənistanda keçirilən forumda iştirak üçün İrəvana rəsmi səfər edən Putinin Köçəryanla görüşü də ikincinin hakimiyyət arzusuna kömək etməyib.

YENİDƏN HƏBS RIÇAĞINDAN İSTİFADƏ QƏRARI VERİLİB

Bütün bunların Paşinyanın nəzərindən qaçması mümkün deyil. Son dövrlər Köçəryanın aktivliyi, müxalif dairələrin baş naziri istefaya səsləməsi, onun postuna "göz dikməsi" fonunda Paşinyan yenidən həbs rıçağından istifadə etməyə qərar verib. Məhz bu səbəbdən, Brüssel görüşü ərəfəsində, yəni 14 iyul tarixində Köçəryan və ailəsinin yeddi üzvünə məxsus əmlak barədə məhkəmə tərəfindən qərar verilib. Araşdırmanın ilkin nəticələrinə görə, qanunsuz hesab edilən və müsadirə olunması barədə qərar qəbul edilən əmlakların siyahısı belədir:

- əsasən, İrəvanın Kentron rayonunda yerləşən binalarda 20 daşınmaz əmlak,
- 2 nəqliyyat vasitəsi
- 1,5 milyon dollardan artıq depozitlər və qiymətli kağızlar,
- fiziki və hüquqi şəxslərə verilən təqribən 10 milyard dram (26 milyon dollara yaxın) məbləğində kreditlər,
- 22 milyard dram (demək olar ki, 57 milyon ABŞ dolları) qeyri-qanuni mənşəli vəsaitlər, xərclənmiş digər naməlum vəsaitlər.

Görünən odur ki, Paşinyan bu addımı ilə Roberti uzunmüddətli "istirahətə" göndərmək, maliyyə resurslarından məhrum etmək niyyəti güdür. Bununla da, baş nazir ən güclü rəqibini və Qarabağ klanının liderini neytrallaşdırmaq, hakimiyyətini qorumaq istəyir...

ERMƏNİSTAN SEÇİCİSİ KEÇMİŞ PREZİDENTİ SEVMİR

Tərəflər arasında mübarizə 2021-ci ildə Ermənistanda keçirilən parlament seçkilərində yenidən şiddətləndi. Özünü keçmiş qvardiyanın lideri sayan Köçəryan parlament seçkilərində qələbə qazanmağı və yenidən hakimiyyətə qayıtmağı hədəfləsə də, buna nail ola bilmədi. Çünki onun arxasında mənfi emosiyaların izi var və bu, müxtəlif səbəblərdən davam edirdi. Hakimiyyət isə ustalıqla bu məsələdən istifadə etdi.

Bununla belə, Köçəryan siyasətdə aktiv qalmağa cəhd edir, müntəzəm olaraq Paşinyanı müharibədə məğlubiyyətə görə tənqid edir. Bəzi dairələr isə Roberti Nikola rəqib sayırlar. Bu, Paşinyanın və komandasının diqqətindən yayınmır.

ROBERT YENİDƏN HAKİMİYYƏT SEVDASINA DÜŞÜB

Son aylar Ermənistanı bürüyən etirazlar fonunda Köçəryan yenidən aktivləşməyə cəhd edir. Artıq mətbuat səhifələrində ara-sıra açıqlamalar verən Robert yenidən hakimiyyət sevdasına düşdüyünü etiraf etməkdən belə çəkinmir. Eks-prezident danışıqların səhv getdiyi, Ermənistanın, guya, yeni müharibədə qalib gələ biləcəyi ilə bağlı sərsəm açıqlamalar verir. Bununla özünə yeni elektorat toplamağı hədəfləyən Köçəryanın hansı dairələrdən güc aldığı da məlumdur. Əsasən, Rusiyadan "qidalanan" Ermənistanın ikinci prezidentinin diaspor və kilsə ilə də münasibətlərinin yaxşı olduğu məlumdur. Hətta kilsənin Köçəryanı ölkədən qaçırtmaq, sonradan lider kimi Ermənistana qaytarmaq kimi bir planının olması da faktdır.

İran Rusiyanı ŞANTAJ EDİR

Ukrayna müharibəsində Rusiyanın ən böyük silah tədarükçüsü olan Tehran rejimi ilə Moskva arasında soyuq küləklər əsir. Körfəz Əməkdaşlıq Şurasının Rusiya paytaxtında qəbul olunan son bəyanatına cavab olaraq İran Ukraynanın ərazi bütövlüyünü tanıdığını bəyan edib.

AZƏR NURİYEV
azernuriyev@kaspi.az

Strateji müttəfiq dövlətlər kimi qələmə verilən Rusiya ilə İranın münasibətlərində problem yaşanır. Gərginliyi Moskvada Körfəz Əməkdaşlıq Şurasının (PGCC) 6-cı strateji toplantısı, daha dəqiq ifadə etsək, yekunda qəbul olunan bəyanat yaradıb. Həmin bəyanatda bildirilib ki, körfəzdə yerləşən Kiçik Tunb, Böyük Tunb və Əbu Musa adaları Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) məxsusdur. Həmin sənədə Rusiya da imza atıb və bu da Tehranı özündən çıxarıb. Dərhal İran XİN Rusiya səfiri Aleksey Dedova etiraz notasını təqdim edib. Tehran rejimi Moskva bəyanatını rədd edərək, üç adanın İranın olduğunu iddia edib. Məsələ ondadır ki, qeyd olunan adalar vaxtı ilə ingilislərin əlində idi. İran hakimiyyətinin məlumatına görə, tarixən adalar onlara məxsus olub və 1903-cü ildə müvəqqəti olaraq ingilislərin nəzarətinə keçib. Birləşmiş Ərəb Əmirliklərinin yaranmasına az qalmış adalar Tehrana qayıdıb. Adaları cəlbedici edən onların Fars körfəzinin strateji rayonunda yerləşməsidir. Əslində Tehran adaları sahilyanı Hörmüzqan əyalətinin bir hissəsi hesab edərək onlara nəzarət edir. Bundan başqa,

adaların ərazisi ölkənin müdafiə xəttinə daxildir - Böyük Tunbaya bitişik sularda dəniz manevrləri həyata keçirilir, adanın özü isə ölkənin bu regionunun hava hücumundan müdafiə sistemindədir. Öz növbəsində, Əbu-Dabi qonşu ölkəni adaları "işğal etməkdə" ittiham edir. Fars körfəzinin ərəb monarxiyaları yekdilliklə BƏƏ-nin mövqeyini dəstəkləyir, Tehranı bu ərazilərə iddialarından əl çəkməyə çağırırlar. Son zamanlar İran ərəb ölkələri ilə rəsmi əlaqələri bərpa edə bilib. Ancaq mövcud vəziyyət barışığa kölgə salır.

İRAN VƏ RUSİYA MÜNASİBƏTLƏRDƏ SƏMİMİ OLA BİLMƏZ

Beynəlxalq platformalarda illərdir bir-birini müdafiə edən Tehran və Moskvanın bir çox məsələlərdə mövqeləri üst-üstə düşüb. İki ölkə arasında əlaqələrdə maraqların toqquşması baş versə də, son 20 ildə yaxınlaşma hiss olunur. Məsələn, Xəzərin statusunun müəyyən olunmasında fikir ayrılıqları sonradan yekun sazişin imzalanması ilə nəticələnib. İki ölkənin münasibətlərini sabit adlandırmaq da olmaz. Buna yol açacaq ideoloji birlik mövcud deyil. İndiki vəziyyətdə İranın xarici siyasətində əsas rəqibin ABŞ yox, İsrail olduğunu qəbul etsək, şübhəsiz, Rusiya İranın yanında olmayacaq.

MOSKVA MOLLA REJİMİNİ YOX, İSRAİLİ SEÇİR

Rusiyanın tarixən İsraillə heç bir münaqişəsi olmayıb və özünü əvvəldən bu ölkənin düşməni hesab etməyib. Rusiya heç bir halda İslam Respublikasının nüvə silahı əldə etməsini, dünyanın nüvə ölkələri klubuna daxil olmasını istəmir. O, həmçinin İran qazının Avropada Rusiya qazının yerini tutmasını da istəmir. Yeri gəlmişkən, Moskvada qəbul edilən bəyanat Tehranın Ukrayna məsələsində tutduğu mövqeyin dəyişməsinə səbəb olub.

İRAN KREMLİ UKRAYNA İLƏ ŞANTAJ EDİR?

Qeyri-sabit xarici siyasəti ilə seçilən İran Rusiyaya "sürpriz" etmək qərarına gəlib. Bəyan edilib ki, İran bütün ölkələrin, o cümlədən Ukraynanın ərazi bütövlüyünə hörmət edir və problemlərin danışıqlar yolu ilə həllini vacib sayır.

Halbuki, İran bir qədər əvvəl Ukraynaya qarşı müharibədə Rusiyaya hərbi yardım edib, onun müdaxiləsini dəstəkləyib. Tehran Rusiyaya yüzlərlə kamikadze pilotsuz uçan aparat çatdırıb. Ukrayna Xarici İşlər Nazirliyi silah tədarük etdiyinə görə İranı Rusiyanın təcavüzünə şərik olmaqda ittiham edib və diplomatik münasibətləri kəsməyə təşəbbüs göstərib.

Əlbəttə ki, Tehranın qəfildən Ukraynanın ərazi bütövlüyünü tanımasını bəyan etməsi təsadüfi deyil. Bu kontekstdə diqqət Rusiya və ərəb ölkələrinin Moskva bəyanatına yönəlib. "Rusiya səfiri Xarici İşlər Nazirliyinə çağırıldıqdan sonra Moskva tərəfdən aydınlaşmalar oldu, lakin biz bunları yetərli hesab etmirik və Rusiya və ya hər hansı digər tərəfin İranın ərazi bütövlüyü ilə bağlı bu praktikasının təkrarlanmasını qəbul etmirik", - deyə İran XİN rəhbəri Hüseyn Əmir Abdullahian deyib.

"TEHRAN HÖKUMƏTİNİN RUSİYA ÜÇÜN HEÇ BİR DƏYƏRİ YOXDUR"

Məhəmməd Bagir Qalibaf

İran mətbuatı da Rusiyanı sərt tənqid etməyə başlayıb.

Yerli mediada keçmiş XİN rəhbəri Məhəmməd Cavad Zərif İranı Moskvanın əlində alət olmaqda suçlayıb və deyib ki, Tehran hökumətinin Rusiya üçün heç bir dəyəri yoxdur.

İran parlamentinin sədri Məhəmməd Bagir Qalibaf daha sərt olub. "Rusiya bilməlidir ki, İranın qonşuları ilə əməkdaşlığı suverenliyi və ərazi bütövlüyü də daxil olmaqla, "qırmızı xətlər"ə riayət edilməsindən asılıdır", - deyən spiker əlavə edib ki, İran parlamenti Rusiya və Körfəz Əməkdaşlıq Şurasının üç ada ilə bağlı birgə bəyanatının məzmununu qəti şəkildə rədd edir.

Ekspert və müşahidəçilər hesab edir ki, Tehran Qərbə yaxınlaşmaq xətti götürüb və Kremllə Pekini şantaj edir. Tehranın gözləntisi budur ki, Çin və Rusiya ərəb dövlətləri ilə münasibətlərini İrana görə tənzimləsin. Bu isə mümkün deyil.

GƏRGİNLİK PİK HƏDDƏ ÇATACAQMI?

Rusiyalı ekspertlər hesab edir ki, gərginlik pik həddə çatmayacaq. Politoloq, "Valday" beynəlxalq diskussiya klubunun eksperti Fərhad İbrahimov hesab edir ki, yaranmış problem Rusiya-İran münasibətlərini çətinləşdirməyəcək.

Fərhad İbrahimov

İranlılar özlərinin ərazi bütövlüyü məsələsinə çox diqqətli və hərtərəfli yanaşırlar, çünki bu aspekt Tehran üçün son dərəcə həssasdır. O qeyd edib ki, Oman adalara mənsubiyyət məsələsində BƏƏ-nin tərəfindədir, lakin bu, Tehrana nəinki Maskatla münasibətləri saxlamağa, hətta inkişaf etdirməyə mane olmur. "Təbii ki, Rusiyada heç kim İranın ərazi bütövlüyünü şübhə altına almır", - deyə politoloq bildirib.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
22 İYUL ŞƏNBƏ 2023

QANUNSUZ OBYEKTLƏRİN QEYDİYYATINA YAŞIL İŞIQ

Qanunsuz qeyri-yaşayış təyinatlı tikililərin qeydiyyatı, sənədləşdirilməsi ilə bağlı yeni prosesə start verilir. Artıq minlərlə sahibkar öz əmlakları üzərində mülkiyyət hüquqqazanmaq imkanı əldə edəcəklər.

RUFİK İSMAYILOV
rufikismayilov@kaspi.az

Azərbaycanda şəhərsalma və tikinti qanunvericiliyinin tələblərinə tam cavab verməyən çoxsaylı qeyri-yaşayış təyinatlı tikililər mövcuddur. Hazırda onların üzərində mülkiyyət hüquqlarının tanınması, iqtisadi dövriyyəyə cəlbi çətinləşib. Bu problemlərin aradan qaldırılması məqsədi ilə Prezident İlham Əliyev tərəfindən "Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərman imzalanıb.

ƏMLAK QEYDİYYATINDA YENİ MƏRHƏLƏ

Fərman 2023-cü il iyunun 1-dək inşa edilən qeyri-yaşayış sahələrini əhatə edir, daşınmaz əmlakın qeydiyyatı sahəsində amnistiya xarakteri daşıyır.

"Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri" publik hüquqi şəxsin İdarə Heyətinin sədr müavini Elşad Məmmədov mediaya bildirib ki, bu Fərman ilk növbədə sahibkarlara mülkiyyət hüquqlarını tanıtmaq imkanı verir. Onun sözlərinə görə, Fərman qeyd edilən tikililərin təhlükəsizlik qaydasına uyğunluğu yoxlanılmadan, istismara yararlı olub-olmamasına baxılmadan birbaşa amnistiyasını deyil, onların islah olunaraq problemlərinin aradan qaldırılmasını təmin edəcək. Dövlət orqanları tərəfindən bir-bir, addım-addım müvafiq problemlər aradan qaldırılaraq, o obyektlərin iqtisadiyyata qazandırılması həyata keçiriləcək.

Elşad Məmmədov

TORPAQLARIN TƏYİNATI DƏYİŞDİRİLƏCƏK

E.Məmmədov deyib ki, tikinti işi aparılmasına icazə verilməyən ərazilərdə vaxtilə inşa olunmuş, yaxud, qanuni prosedurlar icra edilmədən tikilmiş qeyri-yaşayış obyekt-lərinin sahibləri birbaşa Fövqəladə Hallar Nazirliyinin (FHN) müvafiq regional idarələrinə müraciət edəcəklər: "Vətəndaşın hansısa əlavə quruma müraciət etməsinə, arayış alıb digər quruma təqdim etməsinə ehtiyac qalmayacaq. FHN də vətəndaşın müraciəti əsasında Əmlak Məsələləri Dövlət Xidmətinə müraciət edəcək. Orada torpaq, yer quruluşu işləri aparılaraq bütün məsələlər aydınlaşdırılacaq. Obyektin mühafizə zolağına düşüb-düşməməsi və digər amillər nəzərə alınmaqla, mümkün hallarda torpağın təyinatının dəyişdirilməsi üçün Nazirlər Kabineti qarşısında vəsatət qaldırılacaq. Əgər torpaq mülkiyyətdə deyilsə və ya öz mülkiyyətində olan torpağı aşaraq qonşunun bələdiyyə torpağından istifadə edilibsə, hərracdankənar qaydada sürətli şəkildə həmin sahibkarların icarəsinə veriləcək, yaxud özəlləşdiriləcək. Əkin və örüş təyinatlı torpaqlarda, xüsusən Abşeron ərazisində yüzlərlə, minlərlə yaşayış və qeyri-yaşayış obyekti tikilibsə, müraciət əsasında onların təyinatı dəyişdirilərək sənədləşdirilməsinə imkan tanınacaq. Təhlükəli mühafizə zolaqlarında olan qeyri-yaşayış sahələri yenə də sənədləşdirilməyəcək. Bu, mümkün ola bilməz və çox təhlükəli tendensiyaya səbəb ola bilər".

ƏMLAK SAHİBLƏRİNİN MÜLKİYYƏT HÜQUQLARI TANINACAQ

Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev vurğulayıb ki, Azərbaycanda, xüsusən Bakıda çıxarış ala bilməyən yüz minlərlə fərdi həyət evləri, torpaq sahələri, on minlərlə qeyri-yaşayış obyektləri var. Onun sözlərinə görə, bu çıxarışsız əmlakların böyük hissəsi sovetlər dövründən qalıb: "Qeyri-yaşayış obyektlərinə çıxarışların verilməsi ilə bağlı imzalanmış Fərman, təbii ki, həmin əmlak sahiblərinin mülkiyyət hüquqlarının tanınmasına gətirib çıxaracaq. Həmin şəxslərə çıxarışların verilməsi onu deməyə əsas verir ki, artıq vətəndaşın mülkiyyət hüququ tanınır və o, kapital olaraq dəyərləndirilir. Bu gün həmin əmlakların satış dəyəri çox aşağıdır. Lakin çıxarış olduğu zaman əmlak sahibi onu bank vasitəsilə sata, girov qoyub pul götürə bilər. Yaxud, həmin obyektləri icarəyə verərkən çıxarış olduğuna görə rəsmi notarial formada icarə müqaviləsi bağlayıb dövlətə vergi ödəyəcək".

Ekspert deyib ki, çıxarış olmadığı zaman, həmin obyektlərin notarial icarə müqaviləsi bağlanıla bilmir və dövlətə vergi ödənilmir: "Çıxarış olmadığına görə, bu əmlaklar bələdiyyə və əmlak vergisinə də cəlb olunmurlar. Ən nəhayət, hansısa formada satılanda da, çıxarışı olmadığı üçün dövlətə vergi ödənilmir. Mövcud durumdan itirən tərəf tək əmlak sahibləri yox, həm də dövlətdir. Qeydiyyatsız əmlaklarla bağlı dəfələrlə qərarlar qəbul edilib, tapşırıqlar verilib. Amma bu zamana qədər ciddi addım atılmayıb. Əksər hallarda bu qərarlar kağız üzərində qalıb. Yaxud, çox kiçik sayda əmlak çıxarışla təmin olunub".

ƏMLAK SEKTORUNUN İNKİŞAFINA MANE OLAN QÜVVƏLƏR

E.Fərzəliyev söyləyib ki, sovetlər dövründən qalan çıxarışsız həyət evləri olan ərazilər, əsasən Bakının Yasamal, Nəsimi rayonları, Abşeron ərazisindədir. Bu ərazilər nə əkin, neftçıxarma sahələri, nə də digər xüsusi kateqoriyaya aid deyil: "Sırf yaşayış məntəqələri olsa da, oradakı əmlaklar indiyə qədər çıxarışla təmin olunmayıb. Bəzi tikinti normativləri pozulsa da, faktiki vətəndaşlar orada bir neçə onilliklərdir yaşayır. Onların çıxarışının olmaması səbəbindən dövlət büdcəsi də böyük itkilərə məruz qalır. Ümumən, tikinti ilə əlaqədar yeni qaydalar hazırlanmalıdır. Bu gün biz çıxarışsız əmlaklardan danışırıq. Paytaxtın hansısa bir hissəsində qadağan olunmuş ərazilərdə, digər təyinatlı torpaqlarda faktiki olaraq yenə də tikinti işləri gedir. Bu vəziyyətdə vətəndaş haqlı tərəfdir. Bələdiyyə sənədi, yaxud, hansısa dövlət qurumunun verdiyi rəsmi sənəd əsasında torpaq alıb, üzərində hansısa əmlak tikir. Həmin ərazilərə çıxarışların verilməməsi, təyinatın fərqli olması və s. bu kimi bəhanələrin bildirilməsi vətəndaşların günahı deyil. Təəssüf ki, Azərbaycanda əmlak sahəsinin inkişafına mane olan hansısa qüvvələr var. Bu da, son nəticədə vətəndaşların mülkiyyət hüquqlarının pozulmasına gətirib çıxarır".

Elnur Fərzəliyev

“MÜƏLLİMİN DEDİYİ HƏR SÖZ MƏKTƏBLİ UŞAQLAR ÜÇÜN QANUNDUR VƏ SƏHV OLMA EHTİMALI YOXDUR”

KAMBOCADA MÜƏLLİM İŞLƏYƏN AZƏRBAYCANLI

ŞÖHBƏTLƏŞDİ
AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Elnur Kərimov: “Nəqliyyat vasitələrini istədikləri kimi idarə edirlər. Təsəvvür edin, işıqforlar quraşdırılıb, amma qırmızı işıqda çox rahatlıqla hərəkət edə bilərsiniz. Heç kim sizə cərimə tətbiq etmir. Onlarda bizim kimi radarlar yoxdur. Polislər də güclü nəzarət etmirlər”.

Kambocada ingilis dilini tədris edir. Uzaq və tam fərqli ölkə olsa da, burada şagirdlərə daha faydalı olacağını düşünür. Deyir ki, bu ölkədə müəllim hər zaman haqlıdır.

Müsahibimiz Kambocada müəllim işləyən azərbaycanlı Elnur Kərimovdur.

Həmsöhbətimiz Sumqayıtda anadan olub. Ali təhsilini keçmiş Qafqaz Universitetinin (İndiki Bakı Mühəndislik Universiteti -A.Ə.) ingilis dili və ədəbiyyatı fakültəsində alıb. İlk müəllimlik təcrübəsində də elə sözügedən universitetdə başlayıb. Eyni zamanda, Bakıda və Sumqayıtda fərqli kurslarda ümumi və biznes ingilis dili müəllimi kimi fəaliyyət göstərib. Daha sonra fəaliyyətini Kambocada “Paragon İnternational School Combodia”da (Kamboca Paraqon beynəlxalq məktəbi) davam etdirib.

“QIRMIZI İŞIQDA RAHAT HƏRƏKƏT EDƏ BİLƏRSİNİZ”

● Elnur müəllim, insanların əksəriyyəti adətən iş üçün Avropa, Amerikaya üz tutur. Nə üçün Asiyanı seçdiniz?

● İngilis dili müəllimi olduğum üçün ingilisdilli ölkələrə getmək şansım aşağı idi. Əksər Avropa ölkələrində əgər siz ingilis dili müəllimi kimi müraciət edirsinizsə, sizdən tələb olunan ən birinci şərt ana dilinizin hansı olmasıdır. Orada ingilis dili müəllimi işləmək üçün ingilis, amerikan, avstraliyalı, yeni zelandiyalı, ən azından cənubi afrikalı olmağınız lazımdır. Azərbaycan vətəndaşı olduğum üçün beynəlxalq sertifikatım, iş təcrübəm, ingilis dili biliyimin olmasına baxmayaraq, bu rəqabətdə uduzuram. Ona görə də Asiya ölkələrinə getməyə üstünlük verdim. Ən əsası isə, düşünürəm ki, Vyetnamda, Çində, Taylandda, Kambocada daha faydalı ola bilərəm. Düzdür, bu ölkələrdə də fərqli millətin nümayəndələrinə ingilis dili öyrətməkdə köməklik edə bilərəm, amma Kamboca qədər faydalı olmaram.

● Bu, Kambocaya həm də ilk səfəriniz idi. Ölkəyə adaptasiya olmaq çətin deyildi ki?

● Asan olmadı. İlk vaxtlar küçələrdə həddindən artıq motosikletlərin olması məni təəccübləndirdi. Ən əsası isə, qətiyyən yol hərəkəti qaydalarına əməl edilmir. Bizdə də sürücülər, piyadalar bu problemdən şikayətlənirlər. Amma Kambocanı görsələr, şikayətlənməzlər. Nəqliyyat vasitələrini istədikləri kimi idarə edirlər. Təsəvvür edin, işıqforlar quraşdırılıb, amma qırmızı işıqda çox rahatlıqla hərəkət edə bilərsiniz. Heç kim sizə cərimə tətbiq etmir. Onlarda bizim kimi radarlar yoxdur. Polislər də güclü nəzarət etmirlər. Qayda pozmaq adi haldır. Yollarda həddindən çox küçə yeməkləri satılır. Bizim adət etmədiyimiz fərqli qoxular məni narahat edirdi. Amma insan yaşadığı yerə adaptasiya olur. Bir müddət sonra hətta mən də motosiklet aldım.

> *“Onlar salam verəndə, əllərini qovuşdurub, baş əyirlər. Biz isə əl ilə görüşürük. Salam vermək üçün əl uzadanda qəribə reaksiya verirlər.”*

ƏGƏR DÜYÜ VƏ DƏNİZ MƏHSULU İLƏ ARANIZ YAXŞIDIRSA...

● Yemək qoxularının sizi narahat etməsi yəqin ki, qidalanma ilə bağlı da problem yaradıb.

● Digər Asiya ölkələri kimi Kambocada yeməklər çox ədviyyatlı və acı deyil. Tələbəlik illərində Hindistanda olmuşdum. 1 həftə qidalanmada çətinlik çəkdim. Hindistanda hətta siz aşpaza desəniz də ki, yeməyimi acı etmə, yenə də acı olur. Kambocada əgər düyü ilə aranız yaxşıdırsa, ac qalmayacaqsınız. Yeməklərinin 70 faizini düyü təşkil edir. Ölkədə çəltik plantasiyalarında bu məhsulun 200 növü becərilir. Düyüdən desertlər, əriştə də daxil olmaqla, çox sayda yemək hazırlamaq üçün istifadə olunur. Hətta, şərab da hazırlayırlar. Səhər yeməklərində belə, düyü yeyirlər. Bizdən fərqli olaraq, onlarda dəniz məhsulları çoxdur və ucuzdur. 11-12 dollar ödəməklə istədiyiniz qədər yeyə bilərsiniz. Məni daha çox düyü və dəniz məhsullarını sevməyim xilas etdi. Azərbaycanda dəniz məhsullarından daha çox balıq yeyilir. Burada isə çoxşaxəlidir. Krab, ahtapot, osminoq, krevetkalar, omar çox ləzzətlidir. Hörümçəklər, ilanlar, qurbağalar, tarakanlar, çəyirtkələr, tısbağalar, haşərat sürfələri çərəz kimi yol kənarında satılır. Tarantulaları sarımsaq və acı bibərlə bişirirlər. Biz yemirdik, amma mətbəxlərinə də hörmətlə yanaşırdıq. Şorbaları isə çox dadlı idi.

● Şorba alarkən tərkibi ilə maraqlanırdınızmı?

● Xeyr (gülür). Dadlı olduğu üçün maraqlanmırdım. Əsas tələbim donuz əti olmasın. Donuz ətindən əlavə, şorbada nə olsa yeyirdim.

“MÜƏLLİM ANLAMALIDIR Kİ, ŞAGİRD ONDAN ÇOX BİLƏ BİLƏR”

● Bəs təhsil sistemlərindəki fərqlər nədir? Kambocalıların azərbaycanlı müəllimlə münasibətləri necədir?

● Müəllimə çox hörmət edirlər. Şagirdlər həddindən artıq nizam-intizamlıdır. Ümumiyyətlə, ölkədə nadir hallarda kiminsə mübahisə etdiyini görərsiniz. İnsanlar çox mehribandır. Səhv etmisinizsə, sizi asanlıqla bağışlayırlar. Orada olduğum 2 ildə bir-biri ilə dalaşan, küsülü olan şagird görmədim. O qədər sakitdirlər ki, hətta sual vermir, müəllimin dediyini müzakirə də etmirlər. Müəllimin dediyi hər söz məktəbli uşaqlar üçün qanundur və səhv olma ehtimalı yoxdur. Müəllimin tələbləri asanlıqla həm valideyn, həm şagird tərəfindən qəbul olunur.

● Orada “Müəllimin sözü sorğu-sualsız qanundur” deyirsiniz. Sizcə, belə olmalıdır?

● Xeyr, bu, mənfi xüsusiyyətdir. Düzdür, müəllim üçün rahatdır ki, özünü izah etməyə, haqlı çıxarmağa çalışmır. Lakin şagirdlər “niyə” sualını verməlidirlər. Bu tənqidi təfəkkürü formalaşdıran bacarıqdır ki, bunu çox az hallarda kmerlər (orada yaşayan xalqlar - A.Ə.) müəllimə verirlər. Əslində, 2000-ci illərin əvvəllərinə kimi bizdə də müəllimlər şagirdlərdən bunu tələb edirdilər. Yəni müəllim düşünürdü ki, “Sən məndən ağıllısan ki, dediyimə şübhəli yanaşasan?”. Fərq etməz, müəllim yaxud şagird, insan beşikdən məzara qədər öyrənib, özünü təkmilləşdirməlidir. Hər kəs yanlış ola bilər və bunu qəbul etməyi bacarmalıdır. Müəllim öz ixtisasını dərindən bilsə də, yeniliklərə açıq olmalıdır. Bəzən bir şagird sizdən daha çox bilə bilər. Müəllim onu həzm edə biləcək tutumda olmalıdır. Anlamalıdır ki, o da şagirdə “uduza” bilər.

● Müəllimlik karyeranızda şagirdə “uduzmusunuzmu”?

● Bəli, olub. Bir dəfə Azərbaycanda işləyərkən tapşırıqların cavabları əvvəlcədən məndə olduğu üçün özümə əmin idim və güclü hazırlaşmamışdım. Şagirdlərdən biri tapşırığa tam fərqli cavab yazmışdı. Şagirdə səhv etdiyini bildirdim. O, mənə əksini izah etdi və qəbul etmək məcburiyyətində qaldım. Çünki haqlı idi. Şagirdin təhlilini o qədər bəyəndim ki, ona şokolad da aldım. Hətta illər keçsə də, o şagirdimin adını unutmuram.

“KMERLƏRİ ÇOX SIXIŞDIRSANIZ SİZDƏN QAÇARLAR”

● Dili mənimsəmə baxımından kmerlərlə azərbaycanlılar arasında fərq hiss etmisinizmi?

● Çalışqan tələbə hər yerdə fərqlənir. Dil öyrənirsinizsə, yaxşı nəticə almaq üçün həvəslə yanaşmalı və çox vaxt sərf etməlisiniz. Amma, tez qavramaqda rol oynayan əsas məqam ana dilinizdir. İngilis dilinin ana dilinizə nə qədər yaxın olmağı önəmlidir. Kmer dili ilə müqayisədə Azərbaycan dili ingilis dilinə daha yaxındır. Üstəlik, bizdə əksər şagirdlər bu dili 3-cü dil kimi öyrənir. Çünki onlar ana dilindən əlavə, rus dilini də bilir. Bu şagirdlərin ingilis dili öyrənmələri daha rahat olur, nəinki kmerlərin. Bundan əlavə, kmerlər ingiliscə danışarkən ana dili aksentləri çox hiss olunur. Bizdə isə bu proses rahat keçir.

● Elnur müəllim, sizcə tam yad olan ölkədə müəllim işləməyin çətinlikləri nədir?

● Məsuliyyətin ikiqat artır. Siz sinfə daxil olmadan öncə ölkənin mədəniyyətini mütləq bilməlisiniz. İlk dərsinizdə bilməyərəkdən etdiyiniz kiçik səhv haqqınızda mənfi təəssürat yaradar. Məsələn, onlar salam verəndə, əllərini qovuşdurub, baş əyirlər. Biz isə əl ilə görüşürük. Salam vermək üçün əl uzadanda qəribə reaksiya verirlər. Onlara müraciət formasında diqqətli olmaq lazımdır. Kmerləri çox sıxışdırsanız sizdən qaçarlar. Bacardığım qədər buna riayət etməyə çalışırdım. Ailələr əsasən çoxuşaqlıdır. Təəssüfləndirici hal odur ki, burada uşaq əməyindən çox istifadə olunur. Dövlət məktəblərinin də şəraiti ürəkaçan deyil. Uşaqların valideynlərinə maddi yardım etmək üçün işləmələri təhsilə sərf edəcəkləri vaxtı əllərindən alır.

Fotolar: Rüfət Mikayılov / Global Media Group

“MÜƏLLİM ŞAGİRD VƏ VALİDEYNDƏN HƏDİYYƏ ALA BİLMƏZ”

● Yəqin ki, bizdə sosial şəbəkələrdə müəllimlərə bahalı hədiyyələrin verilməsi, bayramdan öncə pul yığılması hallarını müşahidə etmisiniz. Maraqlıdır, Kambocada müəllimə hədiyyə verilir?

● Onların bayramları fərqlidir. Dövlət məktəblərində özlərinin Yeni il bayramında qırmızı zərflərdə pul qoyub hədiyyə verirlər və bu, normal qəbul olunur. Mənim işlədiyim məktəbdə isə belə deyil. Siz işə qəbul olunarkən müqavilə imzalayırsınız. Həmin müqavilədə xüsusi qeyd var ki, heç bir halda şagird və valideyndən hədiyyə qəbul edə bilməzsiniz. Hədiyyəni ancaq məktəb rəhbərliyi verə bilər.

● Kambocada şəhər əhalisi ilə necə ünsiyyət qururdunuz? Yəqin ki, orada hər kəs ingilis dilini bilmir.

● İlk vaxtlar çətin idi. Daha sonra özümü ifadə edə biləcək qədər yerli dili öyrəndim. Orada ingilis dilini yeni nəsil başa düşür, yaşlı nəsil ümumiyyətlə bilmir. Xüsusilə, paytaxtdan kənarda ingilis dili köməyinizə çatmır. Burada tərcümə proqramları həyatımı rahatlaşdırırdı. İstədiyimi telefona ingiliscə yazırdım, proqram onların əlifbası ilə tərcümə edirdi, yazılı göstərib dərdimi izah edirdim. Geniş ürəkli, xeyirxah, kömək etməyi sevən insanlardırlar. Kambocalılarla bağlı təəssüratlarım çox yaxşıdır.

● Kambocaya həyat yoldaşınız, övladlarınızla getmisiniz. Onların təəssüratları necə idi?

● Gedəndə qızım 5, oğlum 1 yaşında idi. Onlar üçün hər şey maraqlı gəlirdi. Yoldaşımla isə, mətbəxi kəşf edirdik. Orada 100-dən çox fərqli kofe növləri var. Həm kofedən, həm də ekzotik meyvələrdən hazırlanan çox dadlı içkilər mövcuddur. Biz onları daha çox alırdıq. Yoldaşım da dəniz məhsullarını sevdiyi üçün bəxtim gətirmişdi. Əsasən, yeməyi çöldə yeyirdik. Orada ən böyük problem Azərbaycandakı kimi dadlı ətin olmamasıdır. Ümumiyyətlə, ət Azərbaycandakı qədər çox istifadə edilmir. Üstəlik, Kambocada halal ət də tapmaq asan deyil. Məcbur olub Hindistandan gələn 20 kiloluq donmuş ət alırdıq. O da o qədər dadlı olmurdu. O ətdən siz yaxşı dolma, yaxud bozbaş hazırlaya bilməzsiniz. Ona görə də evdə, əsasən uşaqlar üçün yemək hazırlayır, özümüz daha çox çöldə yeyirdik.

“DADLI ƏTİN HƏSRƏTİNİ ÇƏKİRDİK”

● Kambocada olarkən daha çox nə üçün darıxırdınız?

● Dönər və ət üçün. Dadlı ətin həsrətini çəkirdik. Azərbaycana gəldikdə isə, özümüzdən asılı olmadan kambocalılar kimi salam veririk. Artıq baş əyərək salam vermək refleks halını alıb. Yoldaşımla yavaş-yavaş alışsaq da, uşaqlarım baş əyərək salam verir.

Hindistan daxildəki inflyasiya risklərini azaltmaq üçün düyü ixracına qadağa qoymağı düşünür. Ekspertlər isə bu qənaətdədir ki, əgər bu addım reallaşarsa, Azərbaycanda da düyünün qiyməti bahalaşacaq. Çünki idxal etdiyimiz düyünün 40 faizini Hindistandan alırıq.

ONSUZ DA BAHA İDİ, BİR AZ DA BAHALAŞACAQ

ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Dünyanın ən böyük düyü tədarükçüsü olan Hindistan basmati istisna olmaqla, bütün növ düyülərin ixracına qadağa qoymağı düşünür. Bloomberg yazır ki, bu, daxili qiymətlərin artması ilə əlaqədardır. Hindistan hakimiyyəti bu yolla inflyasiyanın sürətlənməsi riskindən qaçmaq istəyir. Qadağa Hindistanın düyü ixracının təxminən 80 faizinə təsir edəcək. Hindistanın dünya düyü ticarətindəki payı isə təxminən 40 faizdir. Bu addım Hindistanda qiymətləri aşağı salsa da, dünya bazarında onsuz da yüksək olan qiyməti yenə də arta bilər. Xatırladaq ki, Azərbaycan da düyü idxalının böyük hissəsini Hindistanın hesabına qarşılayır. Bu halda Hindistanın ixracla bağlı qoyacağı qadağa Azərbaycana ixrac edilən düyünün qiymətinə necə təsir edəcək?

DÜYÜNÜN BAHALAŞMASI QİYMƏTLƏRİN ARTMASI İLƏ ƏLAQƏDAR DEYİL

İqtisadçı Pərviz Heydərov bildirdi ki, düyü ilə bağlı qadağanın səbəbi daşınma xərclərinin artmasıdır: "Hindistan və Pakistanın düyü ixracına məhdudiyyət tətbiq etmək istəməsi hələ keçən ildən müşahidə olunurdu. Bu da bir sıra problemlərlə əlaqədardır. Düyü ixrac edən ölkələrin məhdudiyyətlər tətbiq etməsinə səbəb yanacaq məhsullarının bahalaşmasıdır. Yəni bu, Hindistanda düyü istehsalının azalması, qiymətlərin artması ilə əlaqədar deyil. Dünyada yanacağın qiymətinin qalxması ilə əlaqədar düyünü xammal kimi ölkə daxilində istifadə etmək istəyirlər".

DÜYÜ İDXALIMIZDA AZALMA MÜŞAHİDƏ OLUNACAQ

İqtisadi məsələlər üzrə ekspert Akif Nəsirli isə düşünür ki, daxili bazarda inhisarçılıq meylləri də var. Bu da bahalaşmaya təsir edir: "Hindistan dünyada düyü təchizatçılarının ən böyüyüdür. Belə bir addım atacaqsa, bu, dünya bazarında düyünün bahalaşmasına gətirib çıxaracaq. Bu qərar həmçinin Azərbaycan bazarına da ciddi şəkildə təsir edəcək. Bu barədə danışmağımız belə düyü qiymətlərini bahalaşdıra bilər".

A.Nəsirli qeyd etdi ki, düyünün bahalaşması ona olan tələbatı azaltsa, idxalımız aşağı düşə bilər: "Hindistanda tətbiq ediləcək qadağa idxalımızın dəyər baxımından artmasına səbəb olacaq. Tutaq ki, Azərbaycanın illik tələbatı min ton düyü idi. Həmin düyünün qiyməti artacaq deyə, ticarət balansında idxal dəyərimiz də yüksələcək. Amma ölkə daxilində qiymətlərin bahalaşması düyüyə tələbatı azalda bilər. Bu səbəbdən də düyü idxalımızda azalma müşahidə olunacaq".

Akif Nəsirli

DAXİLİ BAZARDA DÜYÜNÜN QİYMƏTİ YÜKSƏLƏCƏK

İqtisadçının sözlərinə görə, hökumət yumşaldıcı tədbirlər görməyə məcburdur: "Daxili tələbatımızı 15 faiz güclə təmin edə bilirik. Qalanını kənardan alırıq. Hindistanla bağlı yaranan vəziyyət onu deməyə əsas verir ki, bazarda qiymətlərin necə inkişaf edəcəyindən asılı olaraq hökumət yəqin ki, Hindistandan ixrac edilən düyü üzrə gömrük rüsumunu ləğv etməyə məcbur olacaq. Çünki idxal etdiyimiz məhsulun 40 faizini Hindistandan alırıq. Ona görə də Hindistanın qoyduğu məhdudiyyətlər istəməz bizim bazara da təsir göstərəcək. Hökumətin yumşaldıcı tədbirlərinə baxmayaraq, əgər bu vəziyyət davam edərsə, daxili bazarda düyünün qiymətləri yüksələcək. Hindistan ixraca məhdudiyyət tətbiq edərsə, bu, sözsüz, idxalımıza da təsir göstərəcək".

Pərviz Heydərov

DAXİLİ TƏLƏBATIMIZI 35-40 FAİZƏ QƏDƏR ÖDƏMƏK OLAR

P.Heydərovun fikrincə, bu vəziyyətdən çıxış yolu Azərbaycanın öz daxili gücünü artırmasıdır: "Belə fors-major hallar yarananda təcili çıxış yolları olmur. İstənilən halda bazarımız Hindistan və Pakistandan gələn düyü məhsulları üzrə formalaşıbsa, başqa ölkələrə müraciətimiz vəziyyəti qısa zaman daxilində sığortalayacaq, uzunmüddətli deyil. Uzunmüddətli sığortalanmaq üçün cənub rayonlarımızda və digər ərazilərimizdə istehsalın qayğısına qalmalıyıq. Mütəxəssislər deyir ki, bu ərazilərdə düyü istehsalı, çəltik tədarükünü artırmaq mümkündür. Hətta daxili tələbatımızı 35-40 faizə qədər ödəmək olar. Bu sahədə "Azərbaycanda çəltikçiliyin inkişafına dair" 2018-2025-ci ili əhatə edən dövlət proqramı da mövcuddur. Həmin proqramda ölkə əhalisinin düyüyə olan tələbatının yerli istehsal üzrə ödənilməsi, həmçinin idxalı əvəzləmək nəzərdə tutulur. Proqramın başa çatmasına 2 il qalıb. Amma bu proqramın nə dərəcədə icra olunduğu məlum deyil. Nə qədər ki ixracdan asılı olacağıq, o qədər də belə fors-major halların meydana çıxması nəticəsində daxili bazarda gərginlik yaranacaq".

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
Global Media Group

Baş redaktor
İlham Quliyev

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Siyasət şöbəsi – **Bəxtiyar Məmmədli**
Sosial həyat və gənclik şöbəsi - **Aygün Əziz, Zərif Salmanlı**
Mədəniyyət və ədəbiyyat şöbəsi – **Təranə Məhərrəmova**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli
Yayım və satış meneceri
Vadim Manafov

Ünvan
Bakı, Səməd Vurğun 34, AF Mall Ticarət Mərkəzi
Telefon: (012) 525 03 31
kaspiqazeti@kaspi.az

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydiyyatdan keçib.
Lisenziya №022264, Qeydiyyat № V 64
Qəzet redaksiya kompyuter mərkəzində yığılıb,
səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1836
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

YENİ SİSTEMƏ KEÇİLİR, AMMA HƏLƏ DƏ SUALLAR QALIR

3 gün sonra parklanma ilə bağlı yeni qaydaların tətbiqinə başlanılmalıdır. Lakin cavabsız qalan suallar çoxdur. Görünən odur ki, yeni sistemə tam keçid yaxın vaxtlarda mümkün olmayacaq. Bir müddət həm köhnə, həm yeni sistemin şahidi olacağıq.

AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

İyulun 25-dən ölkədə yeni parklanma qaydaları qüvvəyə minəcək. Bu qaydalara əsasən, Bakıda parklanma üzrə ödənişlər dörd zonaya bölünüb. Üstəlik, ödənişlərin nağdsız qəbul ediləcəyi nəzərdə tutulub. Bunun üçün xüsusi tətbiq istifadəyə veriləcək və ilkin mərhələdə müvafiq əməkdaşlar və könüllülər sürücülərə yeni sistemdən istifadə qaydalarını izah edəcəklər. Maraqlıdır, yeni parklanma qaydaları Bakıda nəyi dəyişəcək? Gözləntilər nədir?

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) qəzetimizə verilən məlumata görə, qərara əsasən, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının ərazisi istisna olmaqla, Bakı şəhərinin mərkəzində parklanmanın 1 saatı 1 manat, digər zonalarda müvafiq olaraq 1 saatı 70, 40, 30 qəpik məbləğində müəyyən edilib.

ÖDƏNİŞLİ PARKLANMA SIXLIQ OLAN ƏRAZİLƏRDƏ TƏTBİQ EDİLƏCƏK

Qurumdan bildirilir ki, ödənişli parklanma yalnız parklanmanın sıxlığa səbəb olduğu və əlçatanlığın təmin edilmədiyi ərazilərdə tətbiq ediləcək: "Şəhərin hansısa hissəsində parkinqə olan tələbat azdırsa, bu ərazidə qiymət tənzimlənməsi tətbiq edilməyəcək. "Yol hərəkəti haqqında" qanuna əsasən, ödənişli parklanma yerlərində nəqliyyat vasitələrinin 15 dəqiqəyədək parklanması üçün ödəniş tələb olunmur. 15 dəqiqəni keçdikdə, ödəniş tam məbləğdə hesablanır. 22:00-dan saat 07:00-a qədər, eləcə də həftənin bazar günləri ödəniş tələb edilmir".

Parklanma yerlərinin idarə olunmasında əsas hədəflər isə şəhərin küçə-yol şəbəkəsində tıxacların, avtomobil nəqliyyatının ətraf mühitə mənfi təsirinin azaldılmasına, ictimai nəqliyyatın orta hərəkət sürətinin artmasına, 2-ci və 3-cü cərgələrdə qanunsuz parklanmanın qarşısının alınmasına nail olmaqdır.

Gözləntilərə gəldikdə isə, qurumdan bildirilir ki, düzgün parklanma və idarəetmə şəhər yollarında xaosun qarşısını alır. Küçələrin daha effektiv, rahat və təhlükəsiz olmasına imkan yaradır.

ÖDƏNİŞLƏRƏ KİM NƏZARƏT EDƏCƏK?

AYNA-dan verilən məlumata görə, istər ödənişlərə, istərsə də, park ərazisindən neçə müddət istifadə edildiyinə dair nəzarət yalnız elektron şəkildə, mobil tətbiq vasitəsilə olacaq: "Tətbiqin üzərində iş gedir, yaxın günlərdə bununla bağlı açıqlama olacaq. Özəl və küçədənkənar parklanma yerlərinin idarə olunması, ödəniş məbləği və digər qaydalarla bağlı qərarlar mülkiyyətçinin özü tərəfindən müəyyənləşdirilir".

QİYMƏTLƏR 2 DƏFƏ ARTIQ TƏKLİF EDİLMİŞDİ?

Eldəniz Cəfərov

Nəqliyyat eksperti Eldəniz Cəfərov deyir ki, təyin edilən parklanma qiymətləri münasib və vətəndaş üçün əlçatandır. Mütəxəssisin sözlərinə görə, bu qiymətlər bir neçə il öncə 2 dəfə artıq təklif edilmişdi: "Şəhərin mərkəzindən uzaqlaşdıqca, parklanma qiyməti də ucuzlaşır. Dövlət əvvəlki təkliflərlə müqayisədə sosialyönümlü siyasətini nəzərə alaraq, qiymətləri endirdi".

E.Cəfərov deyir ki, parklanmanın necə həyata keçiriləcəyi ilə bağlı sistem hələ müəyyən edilməyib: "Hazırda mobil tətbiq, parkomat, mövcud ödəmə sistemləri təklifləri var. Amma istənilən halda, ilkin mərhələdə parklanma nəzarətçiləri olacaq. Düzdür, onların sayı və vəzifə öhdəlikləri əvvəlki səviyyədə olmayacaq, amma sistem avtomatlaşdırılana qədər nəzarətçiyə ehtiyac var".

Ən böyük narahatlığı parklanma nəzarətçiləri (parkovşiklər) keçirir. Çünki sistem avotmatlaşdırıldığı halda, onların işinə ehtiyac qalmayacaq. Üstəlik, yığılan pullar kiminsə cibinə deyil, dövlətin büdcəsinə gedəcək. Nəqliyyat eksperti deyir ki, artıq parklanma nəzarətçilərinin də sosial təminatı olacaq: "Hazırda onlar qeyri-leqal çalışır, vergiləri ödənilmirdi. Amma bundan sonra parklanma nəzarətçiləri də normal maaş və gələcəkdə də pensiya ala biləcəklər".

PARKLANMADAN GƏLƏN GƏLİRLƏR HARA XƏRCLƏNƏCƏK?

Adil Nəbiyev

Bu qaydaların şəhərin nəqliyyat infrastrukturunda təsirinə gəlincə isə, mütəxəssis deyir ki, şəhərdə nizam-intizam yaranacaq: "Həmçinin, yol hərəkəti iştirakçılarının daha məsuliyyətli olmasına gətirib çıxaracaq. Parklanmadan gələn gəlirlər sistemin saxlanılmasına və dövlət tərəfindən nəqliyyat infrastrukturunun inkişafına yönəldiləcək. Bu qaydaların qəbul olunması böyük nailiyyətdir".

Bəs hazırda Bakı şəhərindəki parklanma əraziləri avtomobillərin sayına uyğundurmu? Həmsöhbətimiz vurğulayır ki, 2014-cü ilə qədər ölkədə xeyli sayda parklanma əraziləri mövcud olub: "Bakıda bəzi parklanma yerləri kimlərsə tərəfindən dağıdıldı, orada müəyyən obyektlər tikildi. Düzdür, şəhərin mərkəzindəki parklanma yerləri hamıya çatmaya bilər. Amma bu qanunla şəhər mərkəzində olan yaşayış və qeyri-yaşayış obyektlərinin sahibləri də nəhayət ki, parklanma yerlərinin təşkil olunması ilə bağlı düşünəcəklər. Bu, şəhərsalma və arxitektura qaydalarında da, dövlətin proqramlarında da mövcuddur. Bakı şəhərində olan bütün yaşayış və qeyri-yaşayış obyektlərinin hamısının parklanma yerləri olmalıdır. Yeni çoxmərtəbəli parklanma yerləri də inşa etmək mümkündür".

CAVABSIZ QALAN SUALLAR ÇOXDUR

Nəqliyyat eksperti Adil Nəbiyev deyir ki, yeni parklanma qaydalarında ən vacib məsələ ödənişlərin dövlət büdcəsinə getməsidir. Qanunsuz parklanmalara görə il ərzində 50 milyon manatdan çox vəsait dövlət büdcəsindən yayınırdı: "Bu ödənişlər yeni avtomobil parklarının salınmasına, yeraltı, yerüstü dayanacaqlara xərcləsək, nəzərəçarpacaq dərəcədə tıxacların qarşısını alacağıq".

Beləliklə, parklanma ilə bağlı yeni qaydalar 3 gün sonra tətbiq olunacaq. Lakin cavabsız qalan suallar çoxdur. Görünən odur ki, yeni sistemə tam keçid yaxın vaxtlarda mümkün olmayacaq. Bir müddət həm köhnə, həm yeni sistemin şahidi olacağıq.

Adriatik dənizinin sahilində yerləşən kiçik, füsunkar Alberobello kəndi YUNESKO-nun mədəni irs siyahısına daxil edilib. Bu kəndin konusvari damı olan kiçik evlərinə dünyanın heç bir yerində rast gəlinmir.

"İTALİYA ÇƏKMƏSİNİN DABANI"NDAN REPORTAJ

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

İtaliyanın ən cənubunda, Adriatik dənizinin sahilində kiçik, füsunkar bir kənd var. Adı "ağac" və "müharibə" kimi tərcümə olunan Alberobellodır. Yerləşdiyi əraziyə görə "İtaliya çəkməsinin dabanı" adlanır. Bu kəndin yerində vaxtilə güclü hərbi texnika istehsalında istifadə olunan palıd bağları yerləşib. Amma kəndə şöhrət gətirən hərbi texnika deyil, günbəzli ağ daş evləri – trullilər olub.

Trulli konusvari damı olan kiçik evlərdir (yunan dilindən tərcümədə "günbəz" deməkdir). Belə evlərə dünyanın heç bir yerində rast gəlinmir və bu orijinallığına görə 1996-cı ildə YUNESKO-nun mədəni irs siyahısına daxil edilib.

Səyahətini Bari şəhərinə planlaşdıran bütün turistlər Alberobelloya baş çəkməmiş dönmürlər. Məxsusi bu qədim kəndin adını tutub gələn turistlər də çoxdur. Kəndə çata bilmək üçün ən əlverişli yol Baridən qatar (10 avro) və avtobuslardır (6 avro). 1.5-2 saat məsafəni qət etmək üçün biletləri əvvəlcədən onlayn və ya yerində almaq olur. Yolboyu yamyaşıl zeytun, üzüm sahələri, albalı bağlarını geridə qoyursan.

GÜNBƏZLİ EVLƏRİN MARAQLI TARİXİ

"Alberobello heyrətamizdir! Yayda başqa hara tətilə gedəcəyinizi bilmirsinizsə, Pugliaya gedin! Bu unikal memarlıq və ənənələrə malik gözəl bir bölgədir!"- deyə turistlər bu kəndə səyahət etməyi bir-birinə məsləhət görürlər. Kəndin küçələrində dünyanın hər yerindən gələn turistlərin izdihamı yaşanır. Trullilərdə unikal hotellər, restoranlar açılıb. Evlərin böyük bir hissəsinin turist ehtiyacları üçün yenidən təşkil edilməsinə baxmayaraq, hələ də 1400 trullidə 14 min sakin yaşayır.

Kəndin hündür hissələrinə qalxıb yüksəklikdən baxanda

Misir piramidaları tərzində bükülmüş konus damları olan, ağardılmış, oyuncaq kimi minlərlə kiçik evlərin unikal panoraması adamı heyran edir.

100 İLDƏN ÇOXDUR DƏYİŞMƏYƏN KÜÇƏ VƏ MEYDANLAR

Günbəzli evlərin maraqlı tarixi var. Trullilər daimi yaşayış yerlərinin vergiyə cəlb edilməyə başlandığı 15-ci əsrdə yaranıb. Heç kim vergini ödəmək istəmədiyindən evlər yoxlama gələnə qədər tez sökülmək üçün tikilib. Bütün struktur tək bir "açar daşı" üzərində dayanır - onu çıxarsaq, trulli dərhal dağılacaq. Bununla da kəndlilər özlərini vergidən qorumağa çalışıblar. Əvvəlcə evlərin tikintisinin bu üsulu ətraf şəhər və qəsəbələrin sakinləri tərəfindən qəbul edilməyib. Ancaq trulli yüz illər boyu, hətta kənd müstəqil əraziyə çevrildikdən və vergilərdən azad edildikdən sonra da tikilib.

Alberobellonun unikal memarlıq görünüşünü qorumaq üçün 20-ci əsrin əvvəllərində kəndin ərazisində yeni binaların tikintisini qadağan edən qanun qəbul edilib. Nəticədə, yüz ildən artıqdır ki, kəndin küçə və meydanlarının görkəmi dəyişməz qalıb.

Hər günbəzin altında yalnız bir otaq var, ona görə də Alberobellodakı evlərin çoxu kiçikdir. Evin bir neçə otağı varsa, damı bir neçə konusdan ibarətdir. Yüz illər əvvəl yalnız damın növünə görə ev sahibinin nə qədər varlı olduğunu müəyyən etmək mümkün idi. Trulli günbəzləri sahibləri üçün talisman hesab edilir.

1925-ci ildən İtaliya hakimiyyəti bütün ölkədə belə evlərin tikintisini qadağan edib. Bu qanun bu gün də qüvvədədir: trulli evi yalnız içəridə yenidən qurulmalı və bərpa edilməlidir.

TURİSTLƏR UNUDA BİLMƏYƏCƏKLƏRİ ZƏNGİN TƏƏSSÜRAT APARIRLAR

İtaliyanın hər bir bölgəsi kimi, Alberobellonun da özünəməxsus xüsusiyyətləri və delikatesləri maraq doğurur. Yerli əhali əl ilə xüsusi növ makaron hazırlayır və bu, əksər yerli restoranlarda müştərilərə təklif olunur.

Kəndin mərkəzi meydanında və ara küçələrində turistlərin yerli mətbəxin dadına baxa biləcəyi, ətri uzaqdan yayılan "Espresso" qəhvəsini içəcəyi, yerli şərabının dadına baxacağı kafelər var. Günbəzli kəndə səyahət edənlər buradan yerli sənətkarların əl işlərindən ibarət keramika, qurudulmuş kolbasa, zeytun yağı, müxtəlif növ makaronlar alırlar. Məhsullar o qədər gözəl dizayn edilir ki, yanından laqeyd ötə bilmirsən.

Alberobelloya gələn turistlər ən əsası kənddən özləri ilə heç zaman unuda bilməyəcəkləri zəngin təəssürat aparırlar.

MARAQLI FESTİVALLAR İL ƏRZİNDƏ DAVAM EDİR

Alberobellonun unikal memarlığı ilə yanaşı, rəngarəng mədəni həyatı var. İl ərzində burada ənənəvi və müasir mədəniyyətin müxtəlif sahələrinə həsr olunan çoxlu festivallar keçirilir.

Ən məşhur festivallardan biri qışda keçirilən Alberobello İşıq Festivalıdır. Bir ay davam edən festival günlərində şəhərdə möhtəşəm işıq şouları təşkil olunur. Tarixi binaların qar kimi ağ və güllərlə bəzədilmiş divarları gözəl təbiət mənzərələri kimi maraq doğurur.

Milad bayramından dərhal sonra Alberobelloya baş çəkən turistlər möhtəşəm karnavalı izləmək fürsəti qazanırlar. Kənd olduqca kiçik olmasına baxmayaraq, burada keçirilən karnaval İtaliyanın ən böyük və maraqlı əyləncələrindən sayılır. Karnavalın tarixi 600 ildən çoxdur. Festival günlərində kəndin küçələri karnaval geyimləri geyinmiş yüzlərlə insanla dolur. Hər yerdə musiqi səslənir və ənənəvi yeməklərin ətri ətrafa yayılır, rəngarəng yarmarkalar və maraqlı əyləncə proqramları təşkil olunur.

Aprelin sonunda kənddə ənənəvi Apuliya musiqisinin sədaları altında "Simit və şərab" festivalı keçirilir. Həmçinin, "Caz festivalı", iyunun əvvəlində çiçək və yaşıl bitkilərin yarmarkası, iyulun sonunda ərazinin feodal idarəçiliyindən azad edilməsinə həsr olunmuş bayram təşkil olunur. Meydanlarda musiqi və rəqslərlə tamaşalar təqdim olunur. Avqustda "Yay pizza festivalı" dünya turistlərinin ən çox xoşladığı bayramdır. "Müqəddəs Kosmas və Damian bayramı" təxminən iki əsrdir ki, hər il sentyabrın sonunda keçirilir. Bayramın sonunda atəşfəşanlıq olur.

TƏK DƏRMANI ZƏRDAB VURULMASIDIR

Mütəxəssislər deyir ki, əgər ilan sancmasından sonrakı 12 saat ərzində xəstə toksikologiya mərkəzinə çatdırılsa, orada ona yardım edilə bilər. Lakin elə ilan zəhəri var ki, ona zərdab da kömək olmur.

İLHAMƏ ƏBÜLFƏT

Son günlər ölkədə ilan sancmalarının sayı artıb. Hətta bir neçə gün əvvəl həmkarlarımızdan biri də sosial şəbəkədə övladını ilan sancdığını, vaxtında müdaxilə edildiyi üçün sağ qaldığını paylaşmışdı. Ümumiyyətlə, isti yay günlərində ilan və digər zəhərli həşəratlar aktivləşdiyi üçün belə xəbərlərlə tez-tez rastlaşırıq. Təsadüfi deyil ki, təkcə ötən ay ərzində ilan sancmış 17 nəfər Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinə müraciət edib.

Bəs ilan hücumu ilə qarşılaşan şəxs nə etməlidir? Belə hallarda xəstəyə ilkin tibbi yardım necə edilir?

YANLIŞ MÜDAXİLƏ AĞIRLAŞMAYA SƏBƏB OLAR

Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinin müdiri Azər Maqsudov deyir ki, ilan, əsasən, yuxarı və aşağı yumşaq hissələri dişləyir. Həmin yeri bağlamaq, çərtmək, zəhəri sovurmaq, yandırmaq, yaraya sarımsaq və ya qatıq kimi vasitələr sürtmək lazım deyil: "Ötən ay bizə müraciət edən 17 nəfərdən beşinin vəziyyəti kəskin ağır olub. Xoşbəxtlikdən, ölüm hadisəsi olmayıb. Bəzi xəstələr 21 gün ərzində xəstəxanada müalicə alıb. Bir şəxsi ilan sancan zaman ilkin olaraq dəri qızarır, şişir, göyərməyə başlayır. Yanlış müdaxilə, türkəçarə zərərçəkənin vəziyyətini daha da ağırlaşdıra bilər. İlk növbədə, ilan sancan tərəfi tərpətməməliyik. Əks təqdirdə, zəhər bədənə daha tez yayılar. İlkin tibbi yardım olaraq, ilan sancan yerə yod vurulmalı, buz varsa, qoyulmalı və xəstə təcili olaraq xəstəxanaya çatdırılmalıdır. Çünki, ilan zəhərinə qarşı zərdab yalnız xəstəxanalarda həkimin nəzarəti altında vurula bilər".

Azər Maqsudov

BU İLANA ZƏRDAB DA FAYDA ETMİR

Mütəxəssislər deyir ki, əgər ilan sancmasından sonrakı 12 saat ərzində xəstə toksikologiya mərkəzinə çatdırılsa, orada ona yardım edilə bilər. Lakin elə ilan zəhəri var ki, ona zərdab da kömək olmur. Ölkəmizdə daha çox gürzə ailəsinə aid olan ilanlara rast gəlinir. Onlardan ən zəhərlisi isə Şahmar ilan adlanan gürzədir. Onun zəhəri o qədər güclüdür ki, digər ilan zəhərlərində istifadə olunan zərdab burada köməyə çatmır. Azərbaycanda dağ və dağətəyi rayonlardan başqa, demək olar, hər yerdə gürzələr var. Onların aktivlik dövrü mart ayının sonundan noyabrın ortalarına qədər davam edir. O, yumurtadan çıxan andan artıq zəhərlidir.

Təvəkkül İsgəndərov

İLANLA RASTLAŞDIQDA NƏ ETMƏLİ?

Azərbaycan Milli Elmlər Akademiyasının Zoologiya İnstitutunun mütəxəssisi, biologiya üzrə fəlsəfə doktoru Təvəkkül İsgəndərov deyir ki, ilan adamla rastlaşdıqda adətən qaçmağa yer axtarır: "Martın sonunda torpaq qızışır, ilanlar da qış yuxusundan ayılır. Onlar cütləşmə ilə bağlı qışlamadan çıxdıqları üçün daha fəal olur. İlan insanla rastlaşdıqda adətən, qaçmağa yer axtarır, yeri olmadıqda özünü qorumaq üçün hücuma keçir. İlan gördükdə sakit dayanmaq lazımdır. O zaman çıxıb gedəcək. Əgər bunu etməsək, aqressiv olacaq və sancacaq".

HİNDİSTANDA İLAN SANCMASI NƏTİCƏSİNDƏ HƏR İL 58 000 İNSAN ÖLÜR

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatlarına görə, dünyada hər il 1,8-2,7 milyon insan ilan sancmasına məruz qalır. Cənub-Şərqi Asiya bölgəsi zəhərli ilanlar üçün biomüxtəlifliyin ən qaynar nöqtəsidir. Bölgədəki ilan zəhərlənməsi təxmin edilən qlobal zəhərlənmənin 70 faizini təşkil edir. Təkcə Hindistanda aparılan araşdırmalar göstərir ki, burada hər il 0,77-1,24 milyon ilan sancması nəticəsində 58 000 ölüm baş verir. Bir çox tropik xəstəliklər kimi, ölümlə nəticələnən ilan sancmasının da qarşısı vaxtında və effektiv müalicə ilə alına bilər. Adətən, ilan sancmasından ən çox təsirlənən insanlar tibbi xidmətlərə və dərmanlara ən az çıxışı olan insanlardır. Buna görə də, əlçatan ilkin tibbi xidmətə əsaslanan səhiyyə sisteminin olması çox önəmlidir.

T.İsgəndərovun sözlərinə görə, ilanlar yayda sərinlənmək üçün yer axtarırlar: "İlanlar, əsasən, isti, quraq yerlərdə yaşayırlar. Meşədə onların üç-dörd növünə rast gəlmək olar. İlanlar həyətlərdə atılmış əşyaların içində, tikinti materiallarının arasında, hasarların ətrafında gizlənə bilər. Eyni zamanda, bostanlarda tağların altına girə bilərlər. İlanlar sakitlik yeri sevir və gizlənmə səbəbindən biri də orada yumurta qoymaqdır. Onların yem obyektləri xırda gəmiricilər, quşlar və balalarıdır".

ZƏHƏRLİ İLANI NECƏ TANIYAQ?

T. İsgəndərov əlavə edir ki, zəhərli və zəhərsiz ilanları fərqləndirən əlamətlər onların bədən quruluşudur: "Zəhərli ilanların bədənləri yoğun və gödək, quyruqları isə qısa və nazik olur. Baş hissəsində zəhər vəzləri yerləşdiyi üçün başları üçbucaq formasındadır. Zəhərsiz ilanların bədənləri nazik, quyruqları uzun olur. Bədənlə quyruğun və başın sərhədi bilinmir. İlan sancdıqdan sonra onun zəhərli və zəhərsiz olduğunu seçmək üçün dişlənən yerdəki diş izlərinə diqqət etmək lazımdır. Zəhərli ilanın üst çənəsinin önündə iki ədəd zəhər dişləri var. Diş batan hissədə iki və ya bir iri qırmızı, qanlı nöqtə görünürsə, bu, zəhər dişlərinin yeridir. Zəhərsiz ilanda bu dişlər olmur, onların dişləri çənənin arxa hissəsindədir. Zəhərsiz ilan sancanda iki cərgə çoxsaylı kiçik qırmızı nöqtələr görünür ki, bu da yem dişləridir".

TİBB MÜƏSSİSƏLƏRİ ZƏRDABLA TƏMİN OLUNUB

Yuxarıda da qeyd etdiyimiz kimi, ilan zəhərinə qarşı ən güclü vasitə zərdabdır. Bəs hazırda xəstəxanalarda lazımi qədər vaksin və zərdab varmı?

TƏBİB-dən verilən məlumata görə, qurumun tabeliyindəki tibb müəssisələri zəruri vaksin və zərdablarla təmin olunub: "Tibb müəssisələrinin tələbnamələri əsasında vaxtaşırı təchizat həyata keçirilir".

ÖLMƏK ÜÇÜN NƏZARƏTDƏN QAÇANLAR

Həyat bəxş edən su, həyat almaqda da mahirdir. Son vaxtlar çimərliklərdə boğularaq ölənlərin sayı yenə də artmaqdadır. Tez-tez bu tipli xəbərlərlə sarsılırıq. İllərdir danışılan bu problemin həlli nədir? İnsanları real təhlükədən daha hansı vasitələrlə uzaqlaşdırmaq olar?

ÇIXIŞ YOLU NƏDİR?

KÖNÜL CƏFƏRLİ

İnsanlar digər fəsillərlə müqayisədə yay mövsümündə istirahət etməyi daha çox sevirlər. Yayda ən çox üz tutulan məkan isə çimərliklər olur. Təəssüf ki, istirahət edənlər bəzən çimmək üçün qadağan olunan əraziləri də seçir. Bu da, bədbəxt hadisələrin yaşanmasına səbəb olur. Həyat bəxş edən su, həyat almaqda da mahirdir. Təkcə ötən ay qadağan olunan ərazilərdə çimən doqquz nəfərin suda boğulması ilə bağlı xəbərlər yayılıb.

İllərdir danışılan və heç bir halda "Çimmək qadağandır" məlumatlandırıcı lövhəsi ilə çıxış yolu tapılmayan bu problemin həlli nədir? İnsanları real təhlükədən daha hansı vasitələrlə uzaqlaşdırmaq olar?

NƏZARƏT OLAN ƏRAZİLƏRDƏ BOĞULMA FAKTI QEYDƏ ALINMAYIB

Çimərlik mövsümü başlayandan 51 nəfər xilas edilib. Qeyd edilən statistika, boğulma təhlükəsi ilə bağlı daxil olan müraciət isə yalnız nəzarətdə olan çimərlik ərazilərinə aiddir. Görün, nəzarətsiz ərazilərdə bu rəqəm nə qədər ola bilər...

FHN-in Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin İctimaiyyətlə Əlaqələr və Təbliğat Şöbəsinin rəisi, daxili xidmət polkovnik-leytenantı Aqşin Əlili bildirib ki, çimərlik mövsümü başlayandan bu günə qədər daxil olan müraciətlərə xilasedicilər tərəfindən dərhal reaksiya verilib: "Xilasedicilərimizin nəzarət etdiyi ərazilərdə istirahət edənlər arasında boğulma faktları qeydə alınmayıb. Boğulma təhlükəsi ilə üzləşən 51 nəfər isə xilasedicilərimiz tərəfindən xilas edilərək, ailələrinə təhvil verilib".

Millət vəkili Elşən Musayev də son günlər dənizdə insan ölümünün artmasının, boğulma hallarının çoxalmasının hər kəsi çox narahat etdiyini deyir: "Təəssüf, biz bu cür acı və ağır xəbərlərlə yayın hər gəlişində mütəmadi olaraq rastlaşırıq. Baxmayaraq ki, müəyyən yerlərə və məkanlara "Çimmək qadağandır" işarəsi qoyulub, amma bəzi insanlar yenə də məlum çağırışa əməl etmirlər. Səhlənkar davranışlar isə, nəticə etibarilə faciələrə səbəb olur. Bilirsiz, bəzən belə fikirlər səslənir ki, yalnız elanla kifayətlənmək olmaz, canlı nəzarət mexanizmi tətbiq etmək lazımdır. Amma necə? Bax, bu sualın cavabını kimsə vermir. Çünki sahil boyunca həmin mexanizmi həyata keçirmək, daha dəqiq söyləsəm, canlı nəzarəti tətbiq etmək fiziki baxımdan mümkün deyil".

DƏNİZDƏ KAMERA QURAŞDIRILMALIDIR?

Deputat məsələni başqa aspektdən də şərh edərək çimərlikdəki insanları qayda pozan sürücülərlə də müqayisə edib: "Nə etmək lazımdır? Gətirib dənizə də kamera quraşdıraq? Orada çimmək istəyənlər də avtomobil sistemi kimi radara, nəzarət kamerasına düşsün, elektron qaydada tədbir görülsün? Belə olmur axı. Düşünürəm, bu da çarə deyil. Burada əsas yol maarifləndirmə olmalıdır. Xüsusən də, gənc nəsil məlum kontekstdə bilgiləndirilməli, onlarla, ələlxüsus vətəndaş cəmiyyəti subyektləri qismində (QHT sektoru və s) iş aparılmalı və təhlükənin miqyası agah edilməlidir. Pilot layihə mümkündürmü? Mümkündür. Təbii, ixtisaslaşmış qurum olaraq Fövqəladə Hallar Nazirliyi bu istiqamətdə xüsusi təkliflərlə çıxış edə bilər. Ya da mövzu ilə bağlı ictimai müzakirə təşkil etmək, həll yolları tapmaq olar. Amma əsas iş maarifləndirmə istiqamətində aparılmalıdır".

Elşən Musayev

SUDA BOĞULMAĞA SƏBƏB OLAN AMİLLƏR

Çimərlik mövzusu tək Azərbaycanda deyil, bütün ölkələrdə həssas məsələdir. Təhlükəsizlik eksperti Elmar Nurəliyevin sözlərinə görə, paytaxtla yanaşı, regionlarda yaşayan sakinlər də çaylarda, göllərdə, çimmək qadağan olunan su hövzələrində dincələrkən, üzməməli olduqlarını bilməlidirlər:

"Bütün dünya çimərlikdə qeydə alınan boğulmalarla mübarizə aparır. Hər il eşidirik ki, kimlərsə boğulma təhlükəsi ilə üzləşdi, kimlərsə xilas olundu və ya həyatını itirdi. İlk növbədə hər kəs çimərliyə planlı şəkildə getməlidir. Yəni, əlverişsiz hava şəraitində getmək, suyun içərisində saatlarla qalmaq, spirtli içki qəbul etmək və s. boğulma təhlükəsi yaradan amillərdir. Suda qalmaq müddəti maksimum 30-40 dəqiqədən çox olmamalıdır. 3-5 saat suyun içərisində qalmaq nəyə lazımdır? Daha dərinə getmək üzrə yarışmaq, qayaların, dəmir konstruksiyaların üzərinə çıxaraq suya baş vurmaq, xilasedicilərin xəbərdarlığına məhəl qoymadan nəzarətsiz ərazilərə getmək olmaz. Sualtı axınlar, kiçik həcmli torpaq sürüşmələri ola bilir. Azərbaycanda suda boğulma hallarının 90%-i, hətta deyərdim ki, 100 faizi nəzarətsiz ərazilərdə qeydə alınıb. FHN-nin nəzarətində olan ərazilərdə suda boğulma halları qeydə alınmayıb. Bu məsələyə səthi yanaşmaq olmaz.

Dünya üzrə boğulmaların statistikasına baxsaq, görərik ki, əlverişsiz hava şəraitində çimərlikdə boğulma faktları 70 faiz təşkil edir. Hər il dünyada 370 mindən çox insan suda boğularaq həyatını itirir. Bu, çox ciddi rəqəmdir. Çimərlikdə təhlükəsizlik məsələsinə çox ciddi yanaşmaq lazımdır. Nəzarət olunan çimərliklərdə - Gürcüstanda, Türkiyədə, Rusiyada 1000-dən çox insan suda boğularaq ölür. ABŞ-da isə bu rəqəm hər il 8 minə yaxın olur. ABŞ-da çimərliklərin cəmi 4 faizi nəzarətdədir, 96 faiz nəzarətsizdir. Bütün dünya üzrə bu problem var və çıxış yolu hələ də tapılmır. Odur ki, nəzarətsiz çimərliklərə getmək olmaz. Burada bədbəxt hadisələr qaçılmazdır. "Üzməyi bilirəm" deməyin, çünki boğulanların 5 faizi məhz üzməyi bilən şəxslərdir. Təəssüf ki, boğulanların 17 faizini uşaqlar təşkil edir. Azyaşlılara, yetkinlik yaşına çatmayanlara çimərlik ərazisində nəzarət mütləqdir. Su, yarış meydançası deyil".

PUL TƏLƏSİ, YOXSA QORUYUCU VASİTƏ?

Ultrabənövşəyi şüalar dərinin tez yaşlanmasına səbəb olur. Dərinin həddindən artıq şüalara məruz qalması xərçəngə də gətirib çıxarır. İsti və günəşli havaların gəldiyini nəzərə alsaq, bu təhlükədən özümüzü necə qoruya bilərik?

XANIM AYDIN
khanimaydin@kaspi.az

Mövsümlə əlaqədar dərimizin ultrabənövşəyi şüalardan qorunması haqqında düşünməliyik. Bu an ilk ağıla gələn, əlbəttə ki, SPF (Sun Protection Factor) tərkibli kremlərdir. Satışda növbənöv və müxtəlif qiymətli kremlər var. Amma... Biz hansı meyarlara uyğun krem seçməliyik? Gəlin birlikdə araşdıraq. Əvvəla, SPF-in nə olduğunu öyrənək. SPF ingilis dilindən tərcümədə günəşdən qorunma faktoru deməkdir. Onun göstəricisi nə qədər çoxdursa, qorunma da bir o qədər effektlidir. Qeyd edək ki, dəriyə mənfi təsir göstərən iki tip ultrabənövşəyi şüalar var: UVA (A qrupu ultrabənövşəyi şüalar) və UVB (B qrupu ultrabənövşəyi şüalar).

GÜNQORUYUCU KREMLƏR VACİBDİR

Dermatoloq Samirə Teymurova deyir ki, hazırda isti yay günlərini yaşayırıq. "Azərbaycanda, xüsusilə də Abşeron yarımadasında yaz-yay günləri, hətta payızın əvvəli belə günəşli günlər olur. Günqoruyucu kremlərdən istifadəni tövsiyə edirəm. SPF-li kremlərdə müxtəlif rəqəmlər görürük: 15, 20, 30, 50, 80, 100. Bu, onların qoruyuculuq dərəcəsini göstərir. Dekorativ kosmetikada – dodaq boyası, ənlik, kirşan və s. təxminən 15% qoruyucu olur. Bu, azdır. Payız-qış aylarında və ya soyuq iqlimli yerlərdə 20-30% kifayətdir. Digər aylarda 30 belə bəs etsə də, mart-oktyabr arası SPF 50+ olmalıdır".

Samirə Teymurova

ULTRABƏNÖVŞƏYİ ŞÜALAR DƏRİMİZİ QOCALDIR

"Ultrabənövşəyi şüalar dərinin tez yaşlanmasına səbəb olur", - deyir dermatoloq: "Məsələn, açıq sahədə (tarlada, inşaatda, dənizdə) işləyən insanların dərisi həm erkən yaşlanır, həm də çox qırışlı olur. Bu kremlər ultrabənövşəyi şüalar nəticəsində qocalmanın da qarşısını alır. Dərinin həddindən artıq şüaya məruz qalması xərçəngə gətirib çıxarır. Əsasən, 1 və 2-ci fototipə malik dərilər – ağbəniz, sarışın, mavi, alagöz insanlar günəş şüalarına daha həssasdır. Şüalar onların dərisinə daha tez – 10-15 dəqiqəyə mənfi təsir edir. Tünd dərili fototiplər onlara nisbətdə günəşə daha çox davamlıdır. Onlara mənfi təsiri 30-60 dəqiqədən sonra başlayır".

QARDAN GƏLƏN TƏHLÜKƏ

Samirə xanım daha bir vacib məqama da toxundu: "Çox insan fikirləşir ki, dağ rayonlarında hava sərindir, qorunmaya ehtiyac yoxdur. Amma nəzərə almaq lazımdır ki, həmin yerlər günəşə daha yaxındır. Buna görə də, dağ rayonlarında da kremlərdən istifadə olunmalıdır. Quba, Qusar, Qəbələdə qış turizm mərkəzlərində qar günəş şüalarını əks etdirir. Həmin yerlərdə şüalar həm göydən gəlir, həm də qara dəyib əks olunur. Biz ikiqat şüalanmaya məruz qalırıq. Ona görə qışda da açıq nahiyələrdə kremdən istifadə olunmalıdır. Çimərliyə isə, səhər saat 10-a qədər və axşam 6-dan sonra getmək məsləhətdir. Buludlu havada da günəş şüalarının mənfi təsiri var. Amma vitamin D qəbulu üçün 10-15 dəqiqə kremsiz çıxmaq olar. Bundan ötrü saatlarla günün altında qalmaq lazım deyil. Çıxarkən başa mütləq şlyapa və ya kepka qoyulmalı, gözə eynək taxılmalıdır. Çətir də istifadə etmək olar. Ümumiyyətlə isə, hər iki saatdan bir kremimizi yeniləməliyik. Əvvəl dəridəki kremi silməli, sonra yenisini çəkməliyik. Üzümüzdə makiyaj varsa, sprey tipli SPF-lərdən istifadə edə bilərik".

ŞÜALAR NƏZARƏTİMİZ ALTINDA OLMALIDIR

Dermatoloq başqa bir məsləhət də verdi: "Biz şüaları da nəzarətimiz altında saxlamalıyıq. Hər birimizin telefonunda hava haqqında məlumat var. Orada havanın temperaturu, küləyin sürəti, nəmişlik, təzyiq və ultrabənövşəyi indeks görünür. Əgər ultrabənövşəyi indeks 2 və ondan çoxdursa, mütləq şəkildə qoruyucu kremdən istifadə olunmalıdır. Kremlərdən tək qadınlar yox, kişilər və uşaqlar da istifadə etməlidir".

ÜZÜMÜZÜ BÜTÜN İLBOYU QORUMALIYIQ

Kosmetoloq Nuriyyə Adıgözəlova deyir ki, dəri ultrabənövşəyi şüaların mənfi təsirindən mütləq qorunmalıdır: "Dərinin açıqda qalan hissələrini, xüsusən də, üzü tək yaz və yay aylarında deyil, bütün ilboyu qorumaq lazımdır. Gündüz SPF tərkibli kremlərin istifadəsi dərini qırışlardan, quruluqdan, piqment ləkələrindən, elastikliyin azalmasından qoruyur. SPF-li kosmetik vasitələr günəş şüalarına sanki günəş effekti verir, onları əks etdirərək dəriyə düşməsinin, dağıdıcı təsirinin qarşısını alır. Bundan başqa, krem istifadəsi fotoqocalma, günəş yanığı, bədxassəli dəyişikliklər, həmçinin allergik dermatitin qarşısını alır".

KREMDƏN DÜZGÜN İSTİFADƏ

"Kremin istifadəsi düzgün olmalıdır", - deyir kosmetoloq: "Evdən çıxmamışdan 20-30 dəqiqə əvvəl dəriyə bərabər şəkildə və hamar çəkilməlidir. Belə olan halda krem yaxşı hopur və dərinin üzərində sanki bir müdafiə qatı yaradır. Çox adam kremi bircə üzə çəkməklə kifayətlənir. Amma bu, doğru deyil. Mütləq dekolte, qulaq, dodaqlar, əllər də kremlənməlidir. Dənizə gedəndə hər suya girib-çıxandan sonra krem təkrar vurulmalıdır".

KÖLGƏLİKDƏ DƏ ULTRABƏNÖVŞƏYİ ŞÜALARDAN QORUNMURUQ

Kosmetoloq başqa vacib mətləblərə də toxundu: "Krem quru dəriyə çəkilməlidir. Çünki dərinin üzərində olan nəmlik, su kremin dəriyə rahat yayılması və hopmasına imkan verməyəcək. Məsələn, əgər dənizdəsinizsə, təbii ki, kremi bədəninizin bütün açıq qalan hissəsinə çəkməlisiz. Hər dəfə krem sürtməzdən əvvəl dərinizdə olan su damcılarını silin. Bəzi insanlar düşünür ki, çətir altında və ya hər hansısa bir kölgəlikdə dayananda ultra-bənövşəyi şüalardan qorunur. Xeyr. Buna aldanıb dərinizi qorumasız buraxmayın. Sərin bir yerdə, məsələn, kondisioner işləyən məkanda (kafe, avtobus, ofis və s.) otura, pəncərədən düşən şüaların dərinizə necə ziyan etdiyindən də xəbərsiz qala bilərsiniz".

Nuriyyə Adıgözəlova

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
22 İYUL ŞƏNBƏ 2023
www.kaspi.az

FUTBOLDA "QUM FIRTINASI"

Son illərdə öncə ərəb milyarderlər Avropa klublarına sərmayə yatırmağa başladılar. Bu zaman ölkə çempionatına yüksəködənişli oyunçular cəlb olunurdu, ancaq rəqəmlər indiki qədər fantastik deyildi. Hazırda isə ərəblər sevimli əylən-cələrini özlərinə daha yaxın etmək üçün kisənin ağzını açıblar.

Dünya futbolunda davam edən yay transfer dövrü özünəməxsusluğu ilə seçilir. Adətən, yalnız Avropanın böyük klubları ciddi aktivlik göstərirdilərsə, indi vəziyyət fərqlidir. Bu yay Səudiyyə Ərəbistanı təmsilçiləri "köhnə qitə" klublarına böyük rəqabət təklif edirlər. Hətta bəzi hallarda asiyalılar daha üstün olurlar.

SƏS-KÜYLÜ "10-LUQ"

Bu ana qədər yay transfer pəncərəsində Səudiyyə Ərəbistanı klubları 10 böyük transfer həyata keçiriblər. Şübhəsiz, onların arasında ən diqqətçəkəni "Real Madrid"dən ayrılan Kərim Benzemanın "Əl-İttihad"a keçididir. "Kral klubu", ulduzuna yeni müqavilə təklif etsə də, fransalı hücumçu Ərəbistan yarımadasından aldığı daha yaxşı maliyyə şərtləri olan təklifi üstün tutdu.

Benzema "Qızıl top"un hazırkı sahibidir və o, tezliklə Səudiyyə Ərəbistanı çempionatında top qovacaq. Bu məqam ərəblərin transfer bazarında payının miqyasını anlamaq üçün yetərlidir. Belə ki, dünyanın ən yaxşı futbolçusu hazırda Səudiyyə Ərəbistanı klubundadır.

Ərəblərin bu yay həyata keçirdiyi ən bahalı transfer "Əl-Hilal"ın İngiltərə "Vulverhempton"undan heyətinə cəlb etdiyi Ruben Neveşdir. Klub 26 yaşlı portuqaliyalı üçün qarşı tərəfə 55 milyon avro ödəyib. "Əl-Hilal" İtaliya təmsilçisi "Latsio"dan heyətinə qatdığı Sergey Milinkoviç-Saviç üçün isə 42 milyon avrosundan keçib. Ən bahalı üçüncü keçid Jotanın Şotlandiya "Seltik"indən "Əl-İttihad"a 29 milyon avroya transferidir.

Bundan başqa, Kalidu Kulibali 23 milyon avroya "Çelsi"dən "Əl-Hilal"a, Eduar Mendi 18,5 milyon avroya "Çelsi"dən "Əl-Əhli"yə, Marselo Brozoviç 18 milyon avroya "İnter"dən "Əl-Nəsr"ə, Aleks Telleş "Mançester Yunayted"dən 4 milyon avroya "Ən-Nəsr"ə keçib. "Liverpul"dan ayrılan Roberto Firmino "Əl-Əhli"yə, "Çelsi"ni tərk edən Nqolo Kante isə "Əl-İttihad"a azad agent kimi qoşulub.

Tezliklə onlara Cordan Henderson, Riyad Mahrez kimi adlar da qoşula bilər.

FORMASININ ZİRVƏSİNDƏ OLANLAR DA GEDİR

Ərəb klubları son illərdə transferlərə yüksək məbləğlər xərcləməyə başlasalar da, ilk böyük keçid ötən qış baş tutdu. Problemli şəkildə "Mançester Yunayted"dən ayrılan Kriştianu Ronaldu astronomik məvacib qarşılığında "Əl-Nəsr"ə "hə" dedi.

İlk qaranquş, cığıraçan olan portuqaliyalı bu addımına görə tənqid olunurdu. Ancaq get-gedə genişlənməkdə olan proses onun yanlış qərar vermədiyini göstərir.

İlk vaxtlar Səudiyyə Ərəbistanı klublarının sadəcə ad olaraq ulduzları transfer etdiyi düşünülürdü. Ancaq getdikcə vəziyyət dəyişdi. Artıq formasının zirvəsində olan və ya üst səviyyədə hələ bir neçə il də oynamağı bacaracaq futbolçular bu Asiya ölkəsinə üz tuturlar. Beləliklə, yalnız yaşlı, "futbolu bitmiş" oyunçuların pul qazanmaq üçün ərəb klublarına keçməsi fikri stereotip halına gəlib.

Aleks Telleş istisna olmaqla adını sadaladığımız futbolçuların hər biri azı iki-üç mövsüm də ən üst səviyyədə oynamağa qadirdirlər. Düzdür, onların əksəriyyətinin yaşı artıq 30-u keçib. Lakin son illər "futbol oynamaq yaşı"nın xeyli artdığını nəzərə alsaq, 32-34 yaş belə, müasir futbolda çox hesab edilmir.

Üstəlik, Jota, Ruben Neveş və Sergey Milinkoviç-Saviç formalarının zirvəsində Ərəbistan yarımadasına üz tutublar. Onların müvafiq olaraq 24, 26 və 28 yaşı var. Jotanı bir neçə top-klub heyətinə cəlb etməyə çalışmışdı. Ruben Neveşin xidmətində "Barselona" maraqlı idi. Hətta "Əl-Hilal" onu transfer etdikdən sonra "Barsa"ya atmaca da atmışdı. Milinkoviç-Saviçin xidmətində isə "Yuventus" maraqlı idi. Ərəblər artıq Avropa nəhənglərinin hədəfində olan ulduzları "oğurlamağı" bacarırlar.

"QUM FIRTINASI"NIN SONU NƏ OLACAQ?

Daha əvvəl Çin klubları oxşar strategiya seçmişdilər. Onlar da səs-küylü transferlər həyata keçirir, ulduz futbolçulara yüksəködənişli müqavilələr təklif edirdilər. Lakin bu, o qədər də effekt vermədi və çinlilər artıq bir neçə ildir prosesdən kənara çəkiliblər. Bəzi mütəxəssislər hesab edirlər ki, Səudiyyə Ərəbistanında da oxşar hal yaşanacaq.

Səudiyyə Ərəbistanının futbolda iştirakı bir qədər fərqlidir. Son illərdə öncə ərəb milyarderlər Avropa klublarına sərmayə yatırmağa başladılar. Bu zaman ölkə çempionatına yüksəködənişli oyunçular cəlb olunurdu, ancaq rəqəmlər indiki qədər fantastik deyildi. Hazırda isə ərəblər sevimli əylən-cələrini özlərinə daha yaxın etmək üçün kisənin ağzını açıblar. Üstəlik, Səudiyyə Ərəbistanı hökuməti bu prosesə dəstək olur.

Transfer edilən futbolçuların performans göstəriciləri keçidlərin yalnız piar məqsədi daşımadığını, keyfiyyətin də düşünüldüyünü deməyə əsas verir. Yaxın illərdə Səudiyyə Ərəbistanı çempionatının Avropa Top-5 liqalarından sonra ən güclü çempionat olacağını düşünənlər az deyil.

Lakin "qum fırtınası"nın dünya futboluna dəqiq təsirlərini indidən ehtimal etmək çox çətindir. Proses hələ başlanğıc mərhələsindədir.